Anna Kldiaşvili
Nino Qaqanidze

# İncəsənət

# 6

## Müəllimin kitabı



## Ümumi təhsilin milli məqsədləri

Gürcüstanda ümumtəhsil sisteminin məqsədi özündə milli və ümumbəşər dəyərləri daşıyan, müstəqil şəxsiyyətin formalaşdırılmasında əlverişli şərait yaratmaqdır. Bununla yanaşı, təhsil sistemi yeniyetmədə əqli və fiziki bacarıqları inkişaf etdirir, lazımi bilik verir, onda sağlam həyat tərzini möhkəmləndirir, şagirdlərdə liberal və demokratik dəyərlərə əsaslanan vətəndaş təfəkkürünü formalaşdırır və onlara ailə, cəmiyyət və dövlət qarşısında öz hüquq və öhdəliklərini dərk etməkdə köməklik göstərir.

Gürcüstanda ümumtəhsil sistemi üzrə qazanılmış təcrübə əsasında yeniyetmə aşağıdakıları bacarmalıdır:

a) Ölkənin maraqları, ənənələri və dəyərlərinə qarşı öz məsuliyyətini dərk etməyi;

b) Təbii ətraf mühit şəraitini qoruyub saxlamağı;

c) Texnoloji və ya başqa intellektual nailiyyətlərin effektiv surətdə tətbiq etməyi; məlumatı axtarıb tapmağı, emal və analiz etməyi;

d) Müstəqil yaşamaq və qərar qəbul etməyi;

e) Yaradıcı olsun, dəyərləri özü yaratsın və yalnız mövcud olanların hesabına yaşamasın;

f) Ömrü boyu öz imkanlarını və maraqlarını daimi inkişaf etdirməyi və onların həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda maksimum reallaşdırmağı;

g) Fərdlərlə və qruplarla kommunikasiyanı;

h) Qanuna tabe və tolerant vətəndaş olmağı.

**Anna Kldiaşvili**
**Nino Qaqanidze**

# İncəsənət

## VI sinif

Müəllimin kitabı

Gürcüstan Təhsil, Elm, Mədəniyyət və İdman
Nazirliyi tərəfindən 2018-ci ildə qriflənmişdir

„Klio“ nəşriyyatı

**Anna Kldiaşvili, Nino Qaqanidze**

# İncəsənət

*VI sinif, Müəllimin kitabı*

**Redaktor Nana Kupraşvili**
Tbilisi Dövlət Rəssamlıq
Akademiyasının professoru,
Sənətşünaslıq doktoru

**Rəssam Tamar Cağeli**

**Tərcüməçi Emin Mahmudov**

**Kompüter**
**Dizaynı İrma Liparteliani**

© „Klio“ nəşriyyatı, 2018
© Anna Kldiaşvili, Nino Qaqanidze, 2018

Bütün hüquqlar qorunur

ISBN 978-9941-415-32-6

**MMC „Klio nəşriyyatı“**
Ağmaşenebeli pr. 181-2,
Tbilisi, 0112
Tel: (+995 32) 234 04 30
E-mail: book@klio.ge
www.klio.ge

# Mündəricat


1. Dərsliyin seriyasının konsepsiyası ..........................................6

2. VI sinfin şagird dərsliyi barəsində ümumi məlumat ..................7

3. Təsviri və tətbiqi incəsənətdə VI sinfin standartı .......................9

4. Standartın nəticələrinə nail olmaq və məzmunun qarşılıqlı əlaqəsinin matrisası ..................................................12

5. Müəllimin kitabının icmalı ........................................................19

6. Fənnin tədrisi prosesində şagirdə yönəlmiş yanaşmaların xüsusiyyəti, məqsədli yaş həddinin özünəməxsusluqları .........20

7. Xüsusi qayğıya ehtiyacı olan şagird .........................................24

8. Xüsusi, fənn və ümumi nüfuz edici bacarıqlar...........................25

9. Dərsin əsaslandığı şagirdə yönəlmiş tədrisin əsas strategiyaları ..................................................................26

10. Təhsil resursları........................................................................32

11. Şagirdin qiymətləndirilmə prinsipləri........................................33

12. Fəallıqların keçirilməsi ilə əlaqədar ümumi tövsiyələr .............37

13. Şagirdin kitabının təcrübi hissəsi.............................................38

14. Müəllimin kitabının yekun hissəsi ............................................39

15. Müəllimin kitabı ilə əlaqədar qeydlər .......................................39

16. Dərslərin ehtimal olunan ssenariləri ........................................41

# 1. Dərsliyin seriyasının konsepsiyası

«Təsviri və tətbiqi incəsənət» kitabının cari dərslik seriyası ümumtəhsil məktəbinin I-VI siniflərin dərsliklərini əhatə edir və şagirdin incəsənət aləminə daxil etməyə xidmət göstərir, şagirdin incəsənətə uyğunlaşma yolu ilə harmonik insan, fərd kimi formalaşmasına yönəlmişdir.

Bu seriyanın konsepsiyası 3 əsas prinsipə söykənir:

1. Şagirdə incəsənət barədə müəyyən nəzəri bilik versin;
2. Şagirdlərdə yaradıcılıq fəallığı arzusu oyatsın / inkişaf etdirsin.
3. Onda təcrübi bacarıqlar işləyib hazırlasın;

Seriya üçün sadədən mürəkkəbə doğru „hərəkəti“, şagirdin yaş xüsusiyyətlərinin izləri və onların nəzərə alınması xarakterikdir. Bununla əlaqədar, seriya elə qurulmuşdur ki, I-IV siniflərdə əsas aksent şagirdin təcrübi – yaradıcılıq işinə cəlb olunmasına yönəldilmişdir. Fənnin öyrənilməsinin bu mərhələsində dərsliklərin təcrübi hissəsi yaradıcılıq məşğuliyyəti zamanı texniki vasitələrin geniş spektrindən istifadə olunmasını və bunun nəticəsində motorikanın inkişafı və mükəmməlləşdirilməsini nəzərdə tutur. Aydındır ki, nəzəri biliyə, təsviri və tətbiqi incəsənətin ayrı-ayrı elementləri və prinsipləri ilə tanış olmağa və incəsənət nümunələri ilə „qarşılıqlı əlaqə“ istəyinin dərinləşdirilməsinə, onun barəsində mülahizələrin, bacarıqların işlənib hazırlanmasına da bundan az əhəmiyyət verilmir.

V-VI siniflərdə nəzəri dərslərin payı artırılmışdır, şagirdlər müxtəlif epoxaların və yaxud ölkələrin incəsənəti, rəssamlıq irsliliyi və yaxud ayrı-ayrı rəssamların yaradıcılığını, dünya incəsənətinin bir çox diqqətəlayiq əsərlərini, adlı-sanlı muzeyləri və onların eksponatlarını- xəzinəsini öyrənirlər. Bunlar şagirdlərin dünyagörüşünü genişləndirir və müstəqil düşüncə və məntiqi mülahizə bacarığını işlənib hazırlanmasına şərait yaradır. Bu mərhələdə təcrübi yaradıcılıq bacarıqlarının inkişafı – şagird tərəfindən təsviri və tətbiqi incəsənətin müxtəlif bədii texnikasının və ya üsulunun öyrənilməsi, çoxcəhətli təbii və ya süni resursların yaradıcılıqda istifadə edilməsi və s. yenə də davam etdirilir.

I-VI siniflərin dərsliklər seriyası şagirdlərə bunu göstərməyə yönəldilmişdir ki, incəsənət kainatın dərk edilməsinin vasitələrindən biridir və eyni zamanda, özünü realizə və özünü dərk etmənin ən gözəl meydanıdır; belə ki, incəsənətin vasitəsilə onlar bəşəriyyət tərəfindən əsrlər boyu formalaşdırılmış dəyərləri dərk edirlər ki, bu da onların aləm barədə geniş dünyagörüşü formalaşmasına kömək göstərir.

# 2. VI sinfin şagird dərsliyi barəsində ümumi məlumat

**(Məqsədlər, struktur, məzmun, metodologiya, komplektasiya)**

## Məqsədlər

Təklif olunan dərslik ibtidai məktəbin VI sinif üçün nəzərdə tutulmuşdur.

Dərslik şagirdi müxtəlif epoxanın incəsənəti ilə tanış edir, bu və ya digər rəssamlıq cərəyanlarının özünəməxsusluqlarını öyrədir, onların təsviri və tətbiqi incəsənətinin müxtəlif bədii texnikası və üsullarını öyrədir, rəngarəng təbii və süni resursların yaradıclıq sahəsində istifadə olunmasının təcrübi bacarıqlarının inkişaf etdirir. Nəzəri və təcrübi materialın bacarıqlarının, yaş həddinin özünəməxsusluğunu nəzərə alınmaqla, şagirdin təbii imkanlarının yaradıcılıq sahəsində inkişaf etdirilməsinə kömək göstərir və ona geniş imkan yaradır.

## Dərsliyin strukturu və təsviri

**(Dərsliyin hər bir struktur elementi üçün şərhlər)**

Dərslik şagirdin kitabından və müəllimin kitabından ibarətdir. Şagirdin kitabı 65 dərsi əhatə edir ki, bunlar da mövzuya əsasən 4 fəsilə ayrılmışdır, birinci fəsildə 18 dərs verilmişdir, ikincidə-16, üçüncüdə – 17, dördüncüdə – 14. Hər bir fəsillin sonunda keçiləsi, müəllimin kitabında yazılmış 5 yekun dərsdə buna əlavə olunur. Şagirdin kitabının əvvəlində „Kitabdan necə istifadə edək“ rubrikası altında onun məzmunu və strukturu verilmişdir ki, burada da dərslikdə istifadə olunmuş hər bir dərsdə təkrar olunan eyni cür struktur elementlərinin təyinatı detallarla izah edilmişdir. Kitabın sonuna „Məktəbin həyəti“ və lüğət əlavə olunmuşdur.

Hər bir dərs qısa mətnlə başlayır ki, burada da bu dərsin mövzusu şagird üçün aydın olan bir dildə izah edilmişdir. Mətn o cür düzəldilmişdir ki, şagirdin motivasiyası və onun həmin mövzuya marağı artsın. Faktiki olaraq, mətndə sual qoyulur, hansı ki, sonra bütün dərsə aid olur.

Beləliklə, şagird get-gedə yeni anlayışa, hadisənin və yaxud faktın öyrənilməsinə hazırlanır. Yeni material ona mərhələlərlə verilir və dərs boyunca ona imkan verilir ki, məhz özü nəticələr çıxarsın, müşahidə etsin və qanunauyğunluq əks etdirsin, təklif olunmuş üsul/texnikadan istifadə etsin və alınmış nəticəni qiymətləndirsin. Bununla yanaşı, tez-tez yeni material artıq keçilmiş mövzularla əlaqələndirilir ki, bu da müəllimə bir daha şagirdin biliyini yoxlamağa imkan verir ki, şagird keçilmiş materialı nə dərəcədə mənimsəmişdir və eyni zamanda göz önündəcə göstərə bilsin ki, incəsənət əsərlərinin bütün elementləri (məhz, kompozisiya, rənglərin qradasiyası, faktura və s.) bir-biri ilə necə əlaqələndirilmişdir.

Dərsliyin struktur elementlərindən biri qırmızı xətli çərçivədir (küncdə yerləşdirilmiş sual işarəsi) ki, burada da müvafiq mövzu və illüstrasiyalar ilə əlaqədar konkret və ən aktual suallar verilmişdir.

İnteraktiv sualları, əvvəlki siniflərin dərslikləri ilə müqayisədə, dərsin sonunda deyil, dərsin gedişi zamanı, məhz dəqiq olaraq yerləşdirilməli olduğu o hissədə yerləşdirilmişdir. Müəllimin kitabında isə bütövlükdə bütün suallara cavab verilmişdir.

Dərsin gedişi zamanı interaktiv metoddan istifadə etmə müəllimə imkan verir ki, hər bir şagirdi dərs prosesinə fəal qoşa bilsin; bu isə, öz növbəsində, yeni nəzəri və ya təcrübi materialın müvafiq qayda da mənimsənilməsinin ilkin şərtidir. İnteraktiv suallar şagirdlərə öz mülahizələrini bildirməyə, müzakirə yolu ilə öz bacarıqlarını əks etdirməyə imkan verir və buna kömək göstərir ki, dərslikdə və iş dəftərində təqdim olunmuş illüstrasiyaları daha yaxşı mənimsəsin, müşahidə nəticəsində yaranmış əhval ruhiyyəni əks etdirə bilsin və özü müvafiq nəticələr çıxara bilsin.

Mavi çərçivə (kitabın təsviri ilə küncdə yerləşdirilmiş) daha bir elementdir, hara ki, lüğət üçün nəzərdə tutulmuşdur və burada yeni terminlərin asan izahı verilmişdir. Bu element yalnız. dərsə yeni anlayış daxil edildiyiq təqdirdə əlavə olunur.

Sinifdə yerinə yetirilməli olan tapşırıq eləcə də bir neçə ən zəruri misal mətn şəkilində verilmişdir, hansılar ki, şagirdə illüstrasiya materialının və dərsin mövzusunun bir-biri ilə əlaqələndirilməsində kömək göstərəcəkdir.

Mətnlər o həcmdədir, hansı ki, beşinci sinif şagirdinin yaş həddinə uyğun gəlir, onlar sadədir və asan dərk olunur.

Mətn ilə illüstrasiya arasında tarazlıq bütün dərslərdə eynidir. Illüstrasiyalar hər bir mövzu üçün məxsusi qayda da seçilmişdir və konkret məqsədə xidmət edir.

Dərsliyə daxil edilmiş illüstrasiya materialı bir neçə meyara əsasən seçilmişdir:

1. Fərqli mövzularla münasibətdə nümunənin maksimal tipləşdirilməsi;
2. Materialın rəngarəngliyi (həm rəngli reproduksiyalardan, eləcə də həmin yaş həddinə malik şagirdlərin əl işləri istifadə olunub)

VI sinfin dərsliyində incəsənətin klassik nümunələrinin payı artırılmışdır ki bu da şagirdə əsl incəsənət nümunələrini mənimsəməkdə kömək göstərir, onları dərk etməyi və öz yaş həddinə müvafiq olaraq, onlar barəsində mülahizə yürütməyi asanlaşdırır.

Kitabın altıncı sinif şagirdi üçün başa düşülən, aydın strukturu vardır. Bir neçə struktur elementi vasitəsi ilə dərk etmənin qaydaya salınması baş verir ki, burada da ən başlıca cəhət bu elementləri sistem halına salmaqdır, yəni dərsdə təkrar olunan və eyni yerdə yerləşdirilir ki, bu da həmin yaşdan olan şagirdin asan, müəllimin köməyi olmadan kitab üzərində istiqamətlənməni bacarmağa kömək göstərsin. Təcrübi tapşırıq sözlərlə yazılmışdır, sarımtıl çərçivədə verilmiş və əlahiddə işarələrlə qeyd edilmişdir. Tapşırıqların mətni qısa və mümkün olduğu qədər aydınıdır. Tapşırıqlar rəngarəngdir, müxtəlif mürəkkəbliyə malikdir. Onların formaları müəllimə imkan verir ki, işin müxtəlif strategiyasından istifadə etsin, şagirdin həm fərdi, eləcə də öz sinif yoldaşı ilə və qrup halında iş zamanı bacarığını göstərə bilsin. Tipik dərs nümunələri ssenarilərində elə misallar verilmişdir ki, burada buna bənzər tapşırıqların, dərsin hansı konkret hissəsində tapşırığın yerinə yetirilməsinin məqsədəuyğunluğu və ona nə qədər vaxt ayırmanın göstəricisi öz əksini tapır. Lakin müstəqil işə başlayana qədər veriləcək təlimat, hansı ki, həm yaradıcılıq xarakterli tövsiyələr (məhz. Konkret bədii texnika ilə və yaxud proses ilə əlaqədar), eləcə də işin təhlükəsizliyi, gigiyena qaydalarına riayət etməklə əlaqədar tövsiyələr tam dəqiqliyi ilə qeyd edilmişdir.

Tapşırıqlar şərti olaraq bir neçə qrupa bölünə bilər:

1. İş, hansı ki, dərslikdə verilmiş əsas mövzunun təcrübi olaraq istifadə olunmasını qarşısına məqsəd qoyur və şagirdin nəzəri biliyini möhkəmləndirir.
2. İş, hansı ki, yerinə yetirilmək üçün şagirdə nəinki təkcə yeni, eləcə də artıq keçilmiş materialdan (texnikanın, üsulun, elementlərin və s.) istifadə etmək lazım gəlir.
3. Tapşırıq, hansını ki, yerinə yetirmək üçün şagird məlumat əldə etməyin müxtəlif yollarına müraciət edir (axtarılıb tapılası materialın zəruri nümunəsini şagirdin iş dəftərində təsvir olunmuş illüstrasiyaların simasında verilmişdir, müəllimin kitabında isə hamı üçün əl çatan internet saytların ünvanları əlavə edilmişdir). Məktəb kitabxanası, evdə əldə edilmiş nəşrlər və illüstrasiya materialları, internetlə əldə edilmiş məlumat və s. bunlar arasındadır.
4. Tapşırıq, hansı ki verilmiş materialın keyfiyyətə görə ayrılmasını və çox aydın təqdim edilməsini nəzərdə tutur (məs., təklif olunmuş mövzu üzrə məlumat stendinin yaradılmasını). Bu cür tapşırığın yerinə yetirilməsi üçün müxtəlif tip məlumatın və materialın əldə edilməsinin baccarığı ilə birlikdə (məs., konkret sənətkarın bioqrafiyası və onun nümunələri, heykəlin tarixi və onun fotoları) şagirdin sadə əmək bacarıqlarını inkişaf etdirilməsi (stendin yaradılması) zəruridir.
5. Tapşırıq, hansı ki, yaradılmış əl işinin və yaxud əldə edilmiş məlumat / materialın təqdimatını nəzərdə tutur və buna müvafiq olaraq şagirdlərə incəsənət əsərlərini qiymətləndirmək və interpretasiya bacarığını, eləcə də öz fərdi əl işini təqdim etmək, öz mülahizələrini əsaslandırmaq bacarığını aşılayır.

Tapşırıqların bir qismi evdə həll edilir və ya dərs zamanı edilir və sonra evdə davam etdirilir. Bu halda müəllim özü yerinə yetirilmiş tapşırığın sinifdə təqdimatını nə zaman keçirməyi özü planlaşdırır və bu məqsədlə müstəqil iş üçün xüsusi ayrılmış vaxtdan istifadə edir.

Şagirdin kitabı üçün hər bir dərsin mətni, illüstrasiya materialı, interaktiv sualları və çoxcəhətli tapşırıqlar mümkün qədər şagirdin yeni nəzəri və təcrübi materialı mənimsəməsini qarşıya məqsəd qoyur. Dərs prosesində materialın mənimsənilməsinin bir neçə mərhələsi; şəxsən, yanaşma, məşqlər, mənimsəmə nəzərdə tutulur və dərs bu fazaların bir-birini əvəz etməsi ilə planlaşdırılır.

Şagirdlərin motivasiyasını məhz bu mühit yüksəldir ki, onlar tərəfindən yerinə yetirilmiş əl işləri, məlumat stendləri və dekorativ pannolar sinif otağının, məktəbin, həyətin və yaxud öz yaşayış yerinin bəzədilməsi üçün istifadə olunur. Dərs ili ərzində öyrənilmiş üsuldan, texnikadan və ya prinsipdən istifadə etmək onlara real həyatda müxtəlif problemlərin həllində kömək göstərəcəkdir.

Hər bir fəslin axırında yekun dərsin əksəriyyəti məşğələlərin bir neçə tipini əhatə edir. Həm nəzəri biliyin mənimsənilməsinin keyfiyyətinin yoxlanılması üzrə test şəkilində tapşırıqları, eləcə də terminlərin mənimsənilməsinin yoxlanmasının krossvordları bunlar arasındadır. Bu məşğələlər müəllimin kitabının axırında verilmişdir. Bu müəllimə imkan verir ki yoxlayıb görsün, şagird keçilmiş materialı necə mənimsəmişdir, şagird dərsliyin bu hissəsinə daxil edilmiş yeni terminləri və anlayışların məğzini necə başa düşmüşdür. Müəllim özü analoji xarakterli testlər yarada bilər və kitabda verilənlərə əlavə edə bilər. Bundan başqa, yekun dərslərdə təcrübi tapşırıqlar da vardır ki, bunları da yerinə yetirən zaman şagirdlərə bütün o materialın, texniki üsulun və ya metodun istifadə edilməsi lazım gəlir, hansındaki, dərsliyin bu hissəsində öyrənəcəkdir. Bununla müəllimə bu imkan verilir ki, yoxlasın görək, şagirdlərdə dərsliyin bu hissəsində keçilmiş material nəticəsində qoyulmuş məqsəd nədən ibarət idi və bu sahədə bacarıq necə inkişaf etdirilmişdir. Müəllimin kitabında özünüqiymətləndirmə sorğusu („bilik köksü“), verilmişdir ki, bunları da şagirdlər müəllimin göstərişi ilə mərhələlərlə doldururlar və bu sorğular onlara öz biliklərini özləri yoxlamağa və özünü qiymətləndirmə bacarığı aşılamaq imkanı verir.

Dərslikdə mövzuların bəziləri bir bütöv dərs üçün verilir, bəzi mövzular isə bir səhifədən ibarətdir. Bəzi mövzular bir dərsdə başa çatdırıla bilər, bəziləri isə iki dərsə bölünməlidir. Bunun neçə dərsə bölünməsi qərarını isə müəllim verməli olur, mövzunu neçə dərsə bölmək onun üstünlük veridyi məsələdir.

# 3. Təsviri və tətbiqi incəsənətdə VI sinfin standartı

### İstiqamətlərə əsasən ilin axırında nail olunası nəticələr

### İstiqamət: yaradıcılıq və təcrübə

**F.p.VI.1 Şagird öz maraqlarına və təcrübəsinə əsaslanaraq, təsviri incəsənətin elementlərindən və prinsiplərindən məqsədyönlü şəkildə istifadə etməklə əl işi üzərində düşüncəsini, ideyasını, əhval -ruhiyyəsini (emosiyalarını) və təəssüratlarını əks etdirməyi bacarmalıdır.**

Nəticə parlaqdır əgər şagird:

- Müxtəlif səpmələrlə və effektlərlə əhval ruhiyyəni verə bilirsə;
- Təzadlı rənglərdən, rənglərin qradasiyasından və yaxın rənglərdən istifadə edibsə;
- İşıq – kölgə, günəş şüası və düşmüş kölgənin vasitəsilə əşyaların həcmini əks etdirə bilirsə;
- Təsviri şəkil səthində düşüncə ilə bölüşdürürsə;
- Əl işi yaradan zaman kompozisiyalı bölünmənin əsas üsullarından, məs., tarazlıq, baxış nöqtəsi (məs. hava şarı ilə səyahət, aşağıdan və yuxarıdan görünən dünya, əşyalar və s.) istifadə edir;
- Müxtəlif bədii üsullarla dinamikanı və statikanı, simmetriyanı və asimmetriyanı düşündüyünü əks etdirmək üçün ötürə bilirsə.
- Müxtəlif üsullarla (forma ilə, ölçü ilə, rəng ilə, şəkil üçün nəzərdə tutulmuş səthdə) bölməklə əl işinin əsas cəhətini ayıra bilirsə;
- Əşyaların tarazlığına və proporsiyasına (sadə şəkildə) diqqət yetirir və əks etdirirsə;
- Perspektivin əsas qanunlarından istifadə etməklə (ön, orta və arxa baxış, yarım tonlar) fəza çəkirsə;
- Müxtəlif üsullar ilə (forma ilə, ölçü ilə, rəng ilə) əl işində başlıca cəhətləri ayıra bilirsə;

**F.p.VI.2. şagird müxtəlif materialdan və texnikadan məqsədyönlü şəkildə seçməyi və tətbiq etməyi, öz düşüncə və ideyasını həyata keçirməyi bacarmalıdır.**

Nəticə parlaqdır əgər şagird:

- Müxtəlif üsullardan istifadə edirsə, müxtəlif materiallarla eksperimentlər keçirirsə, texnikadan istifadə etməklə tapşırığın daha yaxşı yerinə yetirilməsi və fikrini əks etdirməsi üçün istifadə edə bilirsə;

- Müxtəlif janrlı əl işlərini (portret, natürmort, peyzaj, məişət janrı) yaradarkən rəngarəng materialı və texnikanı (ənənəvi, qeyri-ənənəvi) məqsədyönlü şəkildə seçirsə və onların tətbiq yollarını genişləndirirsə;
- Kiçik plastik əl işlərinin, sadə kompozisiyaların və konstruksiyaların yaradılması üçün müxtəlif materialların (təbii, süni) istifadə olunması yollarını inkişaf etdirirsə;
- Kompüter rəsm çəkmək proqramında ritmik, simmetrik, asimmetrik nümunələr yaradırsa, əl işində başlıca cəhəti ayıra bilirsə, təzadlı rənglərdən istifadə edə bilirsə, şəkil çəkmək üçün səthin vertikal və ya horizontal mövqeyini seçə bilirsə, təsviri şəkil çəkilən səthdə düşüncəli şəkildə bölüşdürə bilirsə.

**İstiqamət: Kommunikasiya və interpretasiya**

**F.p.VI.3. Şagird yaradıcılıq və təşkilati problemləri həll etmək üçün öz sinif yoldaşları ilə əməkdaşlıq (cütlüklərlə, komandada) əsasında yerinə yetirilən işin planlaşdırılması və həyata keçirilməsini bacarmalıdır.**

Nəticə parlaqdır əgər şagird:

- Birgə iş zamanı (tədbirin planlaşdırılması/həyata keçirilməsi, cütlükdə/qrupda əl işinin yaradılması) öz sinif yoldaşları ilə fərqli düşüncələri, ideyaları bölüşür, onlarla birlikdə ümumi qərarlar qəbul edirsə;
- Ümumi problemin həlli məqsədi ilə başqaları ilə əməkdaşlıq edirsə;
- Müşahidələrin nəticələrini və öz təcrübəsini sinif yoldaşları ilə bölüşürsə;
- Başqaları ilə əməkdaşlıq təşəbbüsü göstərirsə, konkret vəzifənin həyata keçirilməsində başqalarına kömək edirsə;
- Vəzifənin spesifikası ilə əlaqədar müəyyənləşdirir və işin yerinə yetirilməsinin təxmin olunan vaxtını və ardıcıllığını planlaşdırırsa;
- Özünün rəqəmsal əl işini virtual qruplarda bölüşürsə;
- Funksiyaların bölüşdürülməsində iştirak edirsə;
- Bütün tiplərdən olan fəallıqların yerinə yetirilməsi zamanı vaxt limitinə əməl edirsə.

**F.p.VI.4.** Ş**agird fərdi və birgə** əl **işini təqdim etməyi; fikrin, ideyaların, təəssüratların başqaları ilə bölüşməyi** və **qazanılmış biliyə əsaslanmaqla** özünün, sinif **yoldaşlarının və yaxud tanınmış sənətkarların** əl **işlərində istifadə olunmuş** üsullar barədə müvafiq **terminologiyadan istifadə etməklə söhbət etməyi bacarmalıdır.**

Nəticə parlaqdır əgər şagird:

- Fərdi, birgə əl işinin təqdimatı zamanı öz düşündüklərini söyləyə bilirsə, ideya barəsində və istifadə olunmuş prinsiplər elementlər, üsullar, materiallar, texnikalar və s. barədə fikir yürüdə bilirsə;
- Əl işinin məzmunu, janrı, sahəsi, onda yaranmış təəssüratlar, əhval ruhiyyə (bu və ya digər xətt, rəng, forma və s. hansı əhval ruhiyyəni yaradırsa) və incəsənət əsərlərinə öz münasibətini bildirməyi bacarırsa;
- Əl işi barədə söhbət zamanı müvafiq terminlərdən istifadə edirsə;
- Fərqli ideyalar, üslublar, yanaşmaya münasibətdə tolerantdır və başqasının əl işinin qiymətləndirilməsi zamanı dəqiqdir.

**İstiqamət: incəsənəti məzmunda dərk etmə**

**F.p.VI.5. Şagird təsviri və tətbiqi incəsənətin müxtəlif sahələrinin nümunələrini tarixi, dini, mədəni və sosial məzmun ilə əlaqələndirməyi bacarmalıdır.**

Nəticə parlaqdır əgər şagird:

- Müxtəlif mədəniyyətin incəsənət nümunələrini əsas xarakterik xüsusiyyətlərinə əsasən tanıyırsa və bunun barəsində mülahizə yürüdə bilirsə ki, bu sosial, tarixi və dini məzmunda onların vizual cəhətində özünü necə əks etdirmişdir;
- Məşhur memarlıq abidələrinin yaradılması səbəblərini (Piramidalar, Çin səddi, göydələnlər və s.) sadalayırsa;
- Vizual detallara əsasən (əşyalar, paltar, tikililər, nəqliyyat) əsərdə əl işində hansı epoxanın və mədəniyyətin təsvir olunduğunu tanıyırsa;
- İncəsənət nümunələrində öz əksini tapmış tarixi və ya bədii personajlar barədə mülahizə yürüdə bilir və onların xarakteri haqqında söhbət etməyi bacarırsa;

- İncəsənətin ayrıca nümunələrinin (heykəl, plakat, afişa, reklam) təyinatı barədə mülahizə yürüdürsə;

**F.p.VI.6. Şagird gürcü incəsənəti və incəsənət xadimləri barədə mülahizə yürütməyi bacarmalıdır.**
Nəticə parlaqdır əgər şagird:

- Gürcü heykəltəraşlığı və memarlığının bir neçə nümunəsi (məs., Gürcüstanın kilsə-monastırları, qala-istehkamları) üzrə danışa bilir;
- Gürcü incəsənətinin müxtəlif sahəsi (rəngkarlıq, heykəltəraşlıq, dekorativ – tətbiqi incəsənət nümunələri barədə söhbət aparır; hansılar ki gündəlik həyatımızda rastlaşırıq və öz münasibətini əks etdirir;
- Gürcü incəsənətinin müxtəlif sahəsinin (rəngkarlıq, heykəltəraşlıq, divar rəssamlığı, əlyazmalarının miniatürləri, oymaçılıq, dekorativ – tətbiqi incəsənət və s. bir neçə nümunəsini saya bilir və onlar barədə mülahizə yürütməyi bacarır;
- Gürcü naxışları barədə (harada görüb, gürcü naxışlarında hansı motivləri görürük; bitkiçilik, heyvandarlıq, həndəsi) söhbət aça bilir və öz münasibətini əks etdirir;
- Bir neçə tanınmış gürcü rəssamı və heykəltəraşının əl işlərini tanıya bilir və bunlar barədə öz nöqteyi-nəzərini söyləyə bilir.

## Məzmun və tövsiyələr

### Təsviri incəsənətin əsas elementləri və prinsipləri:

**Xətt:** Müxtəlif tipli və qalınlıqlı xətt, kontur və ştrix

Xətlə fəallıqlar:

Yalnız qara karandaş vasitəsilə bir çox detallardan istifadə etməklə şagird öz şəklini çəkir və başqalarına müxtəlif real və ya uydurulmuş situasiyada, müxtəlif qalınlıqlı xətdən, konturdan istifadə edir.

Fırça və ya birrəngli boya ilə qrafik əl işi yerinə yetirir. Bunun üçün əvvəlcə müxtəlif tip xəttin fırça ilə yerinə yetirilməsi üzərində məşq edir (müəllim göstərməlidir ki, fırçanı basmaqla nizamlanma yolu ilə xəttin qalınlığı necə dəyişir). Təəssürat üçün mümkündür ki, Çin və Yapon qrafika nümunələrinə diqqət yetirsin.

**Rəng:** əsas və tərtib edilmiş, soyuq və isti, təzadlı rənglər tonallıq – ağ və ya qaranın əlavə alınmış tonu, yarım tonlar, rəngin qradasiyası.

Rənglə və xətlə fəallıqlar:

Şagird qara flomaster ilə kağız üzərində, əlini qaldırmadan kontur xəttini çəkir (xətt dəfələrlə bir-birini elə kəsməlidir ki, kəsişmə yerində alınmış formalar kiçik ölçülü olmasın). Alınmış kənarlarla əhatə edilmiş formalar bir-birinə zidd (kontrast) və ya qohum olan rənglərlə rənglənir. Rəsmin daha effektiv alınması məqsədi ilə, rənglənmiş hissələr ştrixlənə, surəti çıxarıla bilər, onun hər hansı bir detalı ayrıla bilər; xətlərin bəzi yerdə qalınlığı artırıla bilər və s.

**Forma:** 2D və 3D – yastı və həcmli, simmetrik və asimmetrik.

Forma ilə fəallıqlar:

Şagirdlər kiçik ölçülü qutuları (kibrit, ətir qutusu) ağ boya ilə rəngləyirlər, yaxud da onların ətrafına ağ kağız yapışdırılar, eləcə də, ağ vərəqdən konus və piramida düzəldirlər. Həndəsi modellərə diqqət yetirirlər ki, bunlara Günəş işığı necə düşür. Eləcə də müəllim yazı taxtasında sxematik olaraq əşyaları və müxtəlif küncdən düşən kölgələri göstərə bilər. Sonra, şagirdlər həndəsi modelləri müxtəlif işıqlarla (bir başa və yandan) çəkirlər və kölgələri rəngləyirlər (kölgələri rəngləyərkən şəkillərin qradasiyası tələb olunmur – bir səhifənin o biri səhifəyə köçürülməsi kifayət edir).

**Prinsiplər:** Kompozisiyalı bölünmənin əsası (vertikal və ya horizontal formatın seçilməsi, formatda təsvirin bölüşdürülməsi); ritm, əsasın ayrılması simmetriya və asimmetriya, statika, dinamika, kontrast, proporsiya, fəza (perspektivin qanunları – ön və arxa görünüşlər).

İstifadə olunmuş prinsiplər:

Şagird əsas proporsiyaları nəzərə almaqla, insan fiqurunu təsvir edir (sadə üsulla);

Diqqət yetirir, obyektin ölçüsünün, rənginin, kəskinliyi müşahidəçinin yavaş-yavaş əsasən necə dəyişir və bunu əl işində əks etdirir;

Ön və arxa görünüşlərdən istifadə etməklə peyzaj çəkir.

Şagird şəkil üçün nəzərdə tutulmuş səthin istifadə olunması və kompozisiyasının elementar qaydaları ilə tanış olur. (kağız üzərində əşyalar və fiqurlar bərabər bölünməlidir, o cür ki, „gözü narahat etməsin“ onu çox yükləməsin, yaxud da boş yerlər qalmasın. Əks olunan əşya çox kiçik olmamalıdır və yaxud elə ölçüdə ki kağız üzərinə sığışmasın).

**Material və alət:** karandaş (rəngli, sadə), pastel, flomaster, quaş, akvarel, kömür, sangina, rəngli kağız, karton, parça, sap, kəndir, məftil, plastilin, gil, təbii, süni, ənənəvi və qeyri -ənənəvi material (plastik kütlə və şüşə butulkalar, metal əşyalar, karton və polietilen torbalar və s.), fırça, qayçı, yapışqan, dülgər alətləri, dulusçuluq alətləri, toxucu alət, tikiş aləti və s.

**Texnika və prosedura:** rəngkarlıq, qrafika və onların texnikaları (sürtmə, ləkə, ottisk), qrafit, qəlib, applikasiya, kağız əşyalar, mozaika, kollaj, monotipiya, modelləşdirmə, konstruksiya, xalça, keçə, kobelin, naxış, kompüter texnologiyaları (çəkiliş proqramı, mətn redaktoru); kəsmək, tikmək, əymək, bükmək, hörmək.

İstifadə olunan material və texnika:

Şagird evdən kiçik ölçülü, üzərində hansısa şəkillər olan parçalar gətirir və üzərində boya ilə çəkir, davam edir, onun çəkilişini başa çatdırır (quaş boyasının yayılmaması üçün rənglərə bir neçə damcı suya davamlı (PVA) yapışqan əlavə edir). Plastilindən (hansı ki quruyur) və yaxud duzlu xəmirdən şagird istənilən formalı çərçivə – dairəvi, oval, düz bucaqlı hazırlayır... çərçivənin üzərinə ornamentlər yapışdırır. Çərçivə quruyan zaman, o müvafiq formalı karton kəsiyi üzərinə yapışdırılmalıdır və ona asılqan əlavə edilməlidir.

**Ümumi fəallıqlar:**

Şagird ətraf mühitdəki əşyalara, obyektlərə, hadisələrə diqqət yetirir və bunları əl işlərində əks etdirir;

Portret, natürmort və naturadan peyzaj çəkir və bu zaman öz təxəyyülünün gücü ilə müxtəlif detallardan istifadə edir; personajları təsvirlə yaradır;

Öz həyatının maraqlı, yaxud əhəmiyyətli anlarını təsvir edir və bu istiqamətdə öz hisslərini verməyə çalışır;

Müəyyən ideyanı ötürmək üçün bədii üsullar seçir (məsələn, ekologiya və ya başqa mövzuda plakatlar yaradır);

(Yaxın adamlarını, ailə üzvlərini, dostlarını və s.) sevdiyi ədəbi qəhrəmanları təsvir edir və onlara münasibətdə öz mövqeyini verməyə çalışır.

**Ehtimal olunan mövzular:** „İlin dörd fəsli“, „Sehrli bağça“, „Sevimli film qəhrəmanı“, „Gürcü ornamentinin motivləri“, „Əfsanələr aləmi“, „Hava şarı ilə səyahət“, „Şəhər“, „Kənd“, „Vətən“, „Qəhrəmanlıq“, emblem, loqo, gerb, bayraq, ekslibr və s.

**Fənnin öyrənilməsinin məqsədləri vəzifələri.**

Fənnin öyrənilməsinin məqsədi harmonik surətdə inkişaf etmiş insanlar böyütməkdən ibarətdir ki, bunlar da incəsənət barədə ümumi nəzəri bilik olacaqdır, incəsənət nümunələrinə „sədaqət“ arzusu baş qaldıracaqdır, ümumiyyətlə, incəsənətə emosional münasibət özünü büruzə verəcəkdir, konkret nümunənin dərk edilməsi və öz fikrinin işlənib hazırlanması, aydın ifadə etmək bacarıqları olacaqdır;

Bu fənnin məqsədi, şagirdə incəsənətin aləmin dərk edilməsi vasitələrindən biri və eyni zamanda özünün realizə, özünü göstərmək bacarığının ən bariz meydanı olduğunu göstərməkdən ibarətdir.

# 4. Standartın nəticələrinə nail olmaq və məzmunun qarşılıqlı əlaqəsinin matrisası

| | |
|---|---|
| **1. Uğurlu səyahət arzulayırıq** | **Məqsəd:** Şagirdə müxtəlif mədəniyyətin özünəməxsusluqlarını müəyyənləşdirmək bacarığı, incəsənət abidələrinə əsasən bu və ya digər ölkənin mədəniyyətinin tanınması bacarığını inkişaf etdirək, fantaziyasını və təsvirlə səyahət bacarığınıa oyadaq. Arqumentləşdirilmiş mülahizə bacarığınıa möhkəmləndirək. |
| | **Nəticə:** f.p.VI.3., f.p.VI.5. |

| | |
|---|---|
| **2. Amsterdam** | **Məqsəd:** Şagirdə təsviri inkişaf etdirək, Hollandiya memarlığı və mədəniyyətinin tipik abidələri ilə tanış edək. Maddi mədəniyyət abidələrinin təhlili və nəticələrin müstəqil əldə edilməsi bacarığını işləyib hazırlayaq. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.5. |
| **3. Hollandiya peyzajı** | **Məqsəd:** Şagirdə tipik Hollandiya peyzajı üçün xarakterik olan əlamətlərin tanınması bacarığını işləyib hazırlayaq, verilmiş mövzu üzrə akvarel boyası ilə peyzajın yaradılması bacarığını inkişaf etdirək, işin etaplarının planlaşdırılması və onların ardıcıllıqla yerinə yetirilməsi bacarığını inkişaf etdirək |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2, f.p.VI.4., f.p.VI.5. |
| **4. Hollandiya rəssamlığı** | **Məqsəd:** Şagirdə rəssamlıq əsərlərinin təhlilini, onda sosial və tarixi məzmunun tanımaq bacarığını inkişaf etdirək; detallara əsasən bu və ya digər janr və mədəniyyət identifikasiyası, təhlili və qiymətləndirilməsi bacarığını möhkəmləndirək. |
| | **Nəticə:** f.p.VI.5., f.p.VI.5. |
| **5. Şəhərin suda əksi** | **Məqsəd:** şagirdə nəzəri biliyin və məlumatın təcrübi surətdə istifadə edilməsi bacarığını işləyib hazırlayaq, fantaziyasını oyadaq, rəsm materialının özünəməxsusluqlarının təcrübədə istifadə olunması bacarığını inkişaf etdirək. Qrafik əsərlərin yaradılması üçün istifadə olunan materialın məqsədyönlü şəkildə seçilməsi və seçilmiş materialın bədii imkanlarının aşkara çıxarılması bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.4. |
| **6. Şəhərin gerbi və devizi** | **Məqsəd:** şagirdə hər bir məlumatın dərk edilməsi və təcrübi işdə ona müvafiq istifadə etmə bacarığını işləyib hazırlayaq. Verilmiş vəzifənin yaradıcılıqla həll edilməsi bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.3., f.p.VI.4., f.p.VI.5. |

| | |
|---|---|
| **7. Madrid** | **Məqsəd:** şagirdi İspaniyanın paytaxtı -Madridin görməli yerləri ilə tanış edək, memarlıq tikililərinin müqayisəli və təsviri incəsənətinin əsərlərinin təhlili bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.3., f.p.VI.5. |
| **8. Madrid – futbol şəhəri** | **Məqsəd:** şagirdi ictimai təyinatlı tikililərin arxitekturası ilə tanış edək onların özünəməxsusluqlarının müəyyənləşdirilməsi bacarığını inkişaf etdirək, verilmiş mövzu üzrə əl işinin müstəqil surətdə yaradılması bacarığını möhkəmləndirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.4., f.p.VI.5. |
| **9. Küçə lövhəsi** | **Məqsəd:** Şagirdə verilmiş mövzu üzrə orijinal əl işinin yaradılması bacarığını, nəzəri məlumatın yaradıcılıqla işlənib hazırlanması bacarığını aşılayaq. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.4., f.p.VI.5. |
| **10. Quel parkı** | **Məqsəd:** Şagirdi XX əsrin ən nəhəng memarı olan Antonio Qaudinin yaradıcılığı ilə tanış edək. Müasir memarlıq formalarının özünəməxsusluqlarının müqayisə olunması bacarığını inkişaf etdirək, fantaziyasını oyadaq. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2, f.p.VI.4, f.p.VI.5. |
| **11. Arzular parkı** | **Məqsəd:** şagirdə fəza düşüncəsinin, fantaziya və yaradıcılıq bacarığının inkişafına nail olaq. Şagird müxtəlif materialdan və texnikadan (kağız plastika, konstruksiya, toxuma) istifadə etməklə üç ölçülü təsvirlərin kompozisiyasını yaratmalıdır. Komanda halında işləmək bacarığını işləyib hazırlayaq. |
| | **Nəticə:** f.p.VI.2., f.p.VI.3., f.p.VI.4, f.p.VI.5. |

| | |
|---|---|
| **12. Afina** | **Məqsəd:** şagirdi qədim yunan memarlığının məşhur nümunələri ilə tanış edək, onların təsviri – təhlili bacarığını işləyib hazırlayaq. Müxtəlif mənbələrdən istifadə etməklə, verilmiş mövzu üzrə məlumatın axtarılıb tapılması və mifin şəkilləndirilməsi (əks etdirmə üsulu ilə çəkmək) bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.4., f.p.VI.5. |
| **13. Flüger** | **Məqsəd:** şagirdlərdə nəzəri biliyin təcrübi surətdə istifadə olunması bacarığını, istənilən resursla orijinal əl işlərinin yaradılmasının təcrübi bacarıqlarını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.2., f.p.VI.3, f.p.VI.4, f.p.VI.5. |
| **14. Yunan vazaları** | **Məqsəd:** şagirdləri yunan bəzədilmiş keramikanın özünə məxsusluqları ilə tanış edək. Məntiqi düşüncə bacarığı, incəsənət əsərlərinin təhlili, məlumat əldə etməyin təcrübi bacarıqlarını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.3., f.p.VI.5. |
| **15. Qab çəkək** | **Dərsin məqsədi:** şagirdə müxtəlif növ ornamentin yaradılması, tanış ornamentli motivlərin interpretasiyalı və əl işində istifadə olunmaq bacarığını, təsviri resursun yaradıcılıqla istifadə olunması bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.3, f.p.VI.4. |
| **16. Böyük şəhərlərin həyətləri** | **Dərsin məqsədi:** şagirdə verilmiş mövzu üzrə əl işinin yaradılması bacarığını, müxtəlif tip xəttin, səpginin, rənglərin uyğunlaşdırılmasının məqsədyönlü şəkildə istifadə olunması bacarığını işləyib hazırlayaq; yaddaşla çəkmək bacarığını aşılayaq. Ətraf mühitə müşahidə etməklə və interpretasiya bacarığını, müxtəlif üsullardan istifadə etməklə düşünülmüşün daha yaxşı verilməsi və cütlüklərlə əməkdaşlıq bacarığını möhkəmləndirək. Verilmiş tapşırığa yaradıcılıqla yanaşaq. |
| | **Nəticə:** f.p.VI.1, f.p.VI.2, f.p.VI.3. |

| | |
|---|---|
| **17. Arzular evinin pəncərəsi** | **Məqsəd:** şagirdə ətraf mühiti müşahidə etmək və təsvirlə çəkmək bacarığını, düşünülmüşün həyata keçirilməsi üçün rəsm materialını və arzu olunan texnikanı seçməklə, istifadə etmək bacarığını aşılayaq. Fantaziyasını oyadaq və verilmiş mövzuya qarşı yaradıcı yanaşma bacarığını oyadaq. Şagird təcrübi cəhətdən təsviri incəsənətin əsas prinsiplərini və elementlərini nümunəsini yaratmaq zamanı bacara bilsin. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2, f.p.VI.4. |
| **18. İncəsənət aləminə səyahət I** | **Məqsəd:** şagirdə müxtəlif epoxanın və yaxud ölkənin mədəniyyətinin özünəməxsusluğunun dərk edilməsi, incəsənət əsərlərinin müstəqil axtarılması, onların müqayisə – təhlilinin təcrübi bacarığını aşılayaq; onun üçün maraqlı olan ölkənin rəssamlarının həyat və yaradıcılığı ilə bağlı materialın axtarılması və tədqiqi bacarığını işləyib hazırlayaq; qrup halında iş və təqdimat bacarığını möhkəmləndirək. |
| | **Nəticə:** f.p.VI.2., f.p.VI.3, f.p.VI.4, f.p.VI.5, f.p.VI.6. |
| **19. İstanbul** | **Məqsəd:** şagirdi İstanbulun çox əsrlik tarixi və mədəniyyəti ilə tanış edək, müxtəlif epoxanın incəsənət əsərlərinin tanınması, müqayisə olunması bacarığını inkişaf etdirək: məlumat axtarmaq bacarığını möhkəmləndirək, müxtəlif əşyadan alınmış biliyin inteqrasiyası bacarığını (tarix, coğrafiya) dərinləşdirək. |
| | **Nəticə:** f.p.VI.3., f.p.VI.4., f.p.VI.5. |
| **20. Şəkilləndirilmiş tarixi fakt** | **Məqsəd:** şagirdə incəsənət əsərində konkret hadisənin və ya tarixi şəxslərin tanımaq bacarığını inkişaf etdirək, nəzəri biliyin təcrübi işlərdə istifadə olunması bacarığını işləyib hazırlayaq, təsvir çəkmək bacarığını oyadaq. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.4, f.p.VI.5. |

| | |
|---|---|
| **21. Xristian və müsəlman İstanbulu** | **Məqsəd:** şagirdi xristian və müsəlman mədəniyyətinin əsas əlamət – xüsusiyyətləri ilə tanış edək, onlarda incəsənət əsərlərini müşahidə, onları müqayisə – təhlil etmək bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.5. |
| **22. Ornament** | **Məqsəd:** şagirdə incəsənət əsərlərinə müşahidə və onun özünəməxsusluqlarının tanınması bacarığını inkişaf etdirək, nəzəri biliyi təcrübi həll etmə bacarıq-bacarığınından istifadə etməklə, dekorativ əl işlərinin yaradılmasına nail olaq. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.4, f.p.VI.5. |
| **23. Dumanlı Albionun paytaxtı** | **Məqsəd:** şagirdi Londonun tarixi, onun diqqətə layiq tikililəri ilə tanış edək, Avropa memarlığının əsas əlamət – xüsusiyyətlərinin tanınması bacarığını inkişaf etdirək, ingilis mədəniyyətinə qarşı maraq oyadaq. |
| | **Nəticə:** f.p.VI.5. |
| **24. Yağış necə çəkilir** | **Məqsəd:** şagirdə akvarel boyası ilə işləməyin təcrübi bacarığını inkişaf etdirək, verilmiş mövzu üzrə əl işi yaradılması bacarığını, müxtəlif üsullarla fərqli fakturanın verilməsi bacarığını inkişaf etdirək. Ətraf mühiti müşahidə bacarığını, fərqli texnikadan istifadə etmə bacarığını aşılayaq. Yaş səth üzərində şəkil çəkmək texnikasından istifadə etməklə yağış peyzaj yaratmaq və təqdimat bacarığını mükəmməlləşdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2, f.p.VI.4, f.p.VI.5. |
| **25. İngilis kitab qrafikası** | **Məqsəd:** şagirdə incəsənət əsərlərinin təsviri – xarakterizə edilməsi, analizi və qiymətləndirmə bacarığını inkişaf etdirək, əsaslandırılmış mülahizə bacarığını möhkəmləndirək. |
| | **Nəticə:** f.p.VI.4., f.p.VI.5. |
| **26. Şəkilli kitab** | **Məqsəd:** şagirdlərdə kitabın illüstrasiyasının yaradılması bacarığını, mətnə əsasən bədii üsulların, formatın, rəngin seçilməsi bacarığını, təqdim etmə bacarıqlarını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.3., f.p.VI.4, f.p.VI.5. |
| **27. Yeni il şam ağacı** | **Məqsəd:** şagirdlərdə yerinə yetirilməli olan işə yanaşmanı və təqdim etmə bacarığını inkişaf etdirək. Şagirdlər müxtəlif materialdan və texnikadan istifadə etməklə şam ağacının orijinal təsvirini yaratsınlar. |
| | **Nəticə:** f.p.VI.2., f.p.VI.4. |

| | |
|---|---|
| **28. Msxeta** | **Məqsəd:** şagirdi gürcü mədəniyyətinin ən qədim abidələri ilə, onların xarakterik xüsusiyyət-əlamətləri ilə tanış edək, orta əsrlərin gürcü memarlığının tanınmış abidələrinin tanınması bacarığını inkişaf etdirək, gürcü mədəniyyət abidələrinə qarşı maraq oyadaq; yeni materialın müstəqil surətdə axtarılması bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.3., f.p.VI.4, f.p.VI.5., f.p.VI.6. |
| **29. Gürcüstanın qala – istehkamları** | **Məqsəd:** şagirdə gürcü maddi mədəniyyət abidələrinə münasibətdə maraq oyadaq, naturadan və yaddaşla şəkil çəkməyin vacib bacarığını işləyib hazırlayaq. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.4., f.p.VI.5, f.p.VI.6. |
| **30. Gürcü incəsənəti** | **Məqsəd:** şagirdə orta əsrlərin gürcü incəsənətinin müxtəlif sahələri ilə tanış edək, gürcü incəsənətinin özünə məxsusluğuna qarşı marağı dərinləşdirək. |
| | **Nəticə:** f.p.VI.5, f.p.VI.6. |
| **31. Gürcü naxışları** | **Məqsəd:** şagirdə mədəni irs abidələrinə müşahidə etmək bacarığını, onun dekorunun əsas xarakterik vəzifələrini, sadə ornament yaratmağın təcrübi bacarığını (naturadan şəkil çəkmə və hafizə əsasında şəkil çəkmək) aşılayaq. Materialın axtarılıb tapılması və vizual şəkildə həyata keçirilməsi bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1, f.p.VI.2., f.p.VI.5., f.p.VI.6. |

| | |
|---|---|
| **32. Gürcü rəssamlığı** | **Məqsəd:** şagirdə bədii əsərləri müşahidə etmək, onların təhlili və qiymətləndirilməsi bacarığını inkişaf etdirmək, əsaslandırılmış mülahizə, əsərlərin təqdimatı bacarıqlarını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.4., f.p.VI.5., f.p.VI.6. |
| **33. Dəvətnamə** | **Məqsəd:** Şagirdə müxtəlif ölkələrin tarixi abidələrinin tanınması və müxtəlif üsullardan istifadə etməklə onların təsvirlərinin öz əli ilə yaradılması bacarığını işləyib hazırlayaq, qoyulmuş vəzifənin (əldə düzəldilmiş dəvətnamənin yaradılması) orijinal həlli bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.3., f.p.VI.4, f.p.VI.5., f.p.VI.6 |
| **34. İncəsənət aləminə səyahət II** | **Məqsəd:** şagirdə müxtəlif epoxanın və yaxud ölkənin mədəniyyətinin özünəməxsusluğunun dərk edilməsi, incəsənət əsərlərinin müstəqil axtarılması, onların müqayisə – təhlilinin təcrübi bacarığını aşılayaq; onun üçün maraqlı olan ölkənin rəssamlarının həyatı və yaradıcılığı ilə bağlı materialın axtarılması və tədqiqi bacarığını işləyib hazırlayaq; qrup halında iş və təqdimat bacarığını möhkəmləndirək. |
| | **Nəticə:** f.p.VI.4., f.p.VI.5., f.p.VI.6. |
| **35. Paris** | **Məqsəd:** Şagirdi Fransa paytaxtının görməli yerləri ilə tanış edək, Avropa arxitekturasının özünəməxsusluqlarının tanınması bacarığını inkişaf etdirək; qədim və müasir memarlığın müqayisə olunması bacarığını işləyib hazırlayaq. |
| | **Nəticə:** f.p.VI.4., f.p.VI.5. |
| **36. Nöqtələrlə şəkil çəkmək** | **Məqsəd:** şagirdə müxtəlif bədii texnikaya yiyələnmək bacarığını, süni resurslardan məqsədyönlü şəkildə istifadə etmək bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.4, f.p.VI.5. |
| **37. Həndəsi natürmort** | **Məqsəd:** şagirdə natürmortdan şəkil çəkmək zamanı, əşyaları bərabər miqdarda və proporsional mühafizə etmək bacarığını işləyib hazırlayaq. Əşyanın həcminin verilməsi bacarığını işıq – kölgə modelləşdirilməsi vasitəsi ilə möhkəmləndirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.4. |

| | |
|---|---|
| **38. Səthdə fəza** | **Məqsəd:** şagirdə rəsm əsərində fəzanın verilməsi bacarığını perspektivin əsas qanunlarının istifadə olunması ilə inkişaf etdirək, onları nöqtəsi anlayışı ilə tanış edək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.4. |
| **39. Yüksək moda paytaxtı** | **Məqsəd:** şagirdi müasir fransız mədəniyyətinin əsas sahələrindən biri-paltar dizaynının özünəməxsusluqları ilə tanış edək; paltarın eskizlərinin ənənəvi və qeyri-ənənəvi üsullarla yaradılması bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.4., f.p.VI.5. |
| **40. Yeni incəsənət paytaxtı** | **Məqsəd:** şagirdə əsərlərin, istifadə olunmuş təsviri üsullarının analizi bacarığını, müxtəlif mənbələrdən alınmış məlumatın inteqrasiyası və ümumiləşdirilməsi, məntiqi və əsaslandırılmış mülahizə bacarıqları, bədii əsərlərin epoxa ilə əlaqələndirilməsi bacarığını inkişaf etdirək. Nəzəri və vizual məlumatın kompüter texnalogiyasından istifadə etməj yolu ilə əldə etmək bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.4., f.p.VI.5. |
| **41. Qahirə** | **Məqsəd:** şagirdə iki mədəniyyət – Misir və Ərəb incəsənətinin və memarlığının nümunələri ilə tanış edək, onların özünəməxsusluqlarının dərki və tanınması bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.4., f.p.VI.5. |

| | |
|---|---|
| **42. Misir suveniri** | **Məqsəd:** şagirdə müxtəlif növ resursla verilmiş mövzu üzrə (Misir incəsənətinin motivləri əsasında orijinal suvenirin yaradılması bacarığını inkişaf etdirək; ona müxtəlif materialın özünəməxsusluqları biliyini verək və onların istifadə olunması bacarıqlarını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.2., f.p.VI.4., f.p.VI.5. |
| **43. Sehrli xalça** | **Məqsəd:** şagirdə Şərq incəsənətinin özünəməxsusluqları biliyini möhkəmləndirək, ornamentin istifadə olunması ilə dekorativ əl işlərinin yaradılması bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.4., f.p.VI.5. |
| **44. Qədim Misir incəsənəti** | **Məqsəd:** şagirdi qədim Misir incəsənətinin müxtəlif sahələri ilə tanış edək, incəsənət əsərlərinin təhlili bacarığını, ondan əsaslandırılmış nəticələrin alınması bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.3., f.p.VI.4., f.p.VI.5. |
| **45. Portret** | **Məqsəd:** Şagirdin təsviri incəsənətin janrlarından biri olan portreti yadına salaq; tarixi və bədii nöqteyi-nəzərdən ən əlamətdar və maraqlı portret nümunəsini, Fayum porteti ilə tanış edək; müşahidə bacarığını, insanın xarakterik əlamətlərinin görünməsi bacarığını, incəsənət nümunəsində əks olunan əhval-ruhiyyənin oxunması və sözlərlə bunun ötürülməsi bacarıqlarını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.4., f.p.VI.5. |
| **46. Mənim yaxınımın portreti** | **Məqsəd:** şagirdə müşahidə, portret yaradarkən insanın xarakterik əlamətlərinin qeydə alınması bacarıqlarını inkişaf etdirək ki o naturadan və yaxud əks etdirməklə insanın portretini yarada bilsin |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.4., f.p.VI.5. |
| **47. Roma** | **Məqsəd:** şagirdi Romanın əsas görməli yerləri və onların özünə məxsusluqları ilə tanış edək, müxtəlif mədəniyyət abidələrinin qarşılıqlı surətdə müqayisəsi bacarığını işləyib hazırlayaq, memarlıq abidələrinin təsvir – analizi bacarığını möhkəmləndirək. |
| | **Nəticə:** f.p.VI.5. |
| **48. Natürmort** | **Məqsəd:** Təsviri incəsənətin janrlarından biri olan – natürmortu şagirdin yadına salaq; Pompeyin rəsmlərində saxlanılıb qalmış tarixi və bədii nöqteyi-nəzərdən olduqca özünəməxsus və maraqlı natürmort nümunələri ilə tanış edək; müşahidə bacarığını, əşyanın xarakterik əlamətlərini – forma, rəng, fakturanın görünməsini, sözlərlə təsvir etmək bacarığını və əl işində əks etdirmə bacarıqlarını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2, f.p.VI.5. |

| | |
|---|---|
| **49. Renessans rəssamlığı** | **Məqsəd:** şagirdi renessans epoxasının rəssamlığı, onun özünə məxsusluqları ilə tanış edək; eləcə də, bu dövrün bəzi rəssamlarının yaradıcılığı ilə tanış edək; şagirdə konkret bədii əsərin analizi bacarığını işləyib hazırlayaq. Bunun əsasında şagird incəsənət əsərlərinin müvafiq mədəniyyətlə əlaqələndirilməsini bacarsın. |
| | **Nəticə:** f.p.VI.5. |
| **50. Orijinal hədiyyə** | **Məqsəd:** şagirdə təsviri incəsənətin elementlərinə və prinsiplərinə qarşı yaradıcı yanaşma göstərmək bacarığını inkişaf etdirək, düşünülmüşün həyata keçirilməsi üçün müvafiq təbii və süni resurslardan istifadə etmək bacarığı, orijinal işlər yaratmaq bacarığını aşılayaq. |
| | **Nəticə:** f.p.VI.2. |
| **51. İncəsənət aləminə səyahət III** | **Məqsəd:** şagirdə müxtəlif epoxanın və yaxud ölkənin xüsusiyyətlərinin dərk edilməsi bacarığını inkişaf etdirək; incəsənət əsərlərinin müstəqil axtarılıb tapılması və analizi, qrup halında işləmək və təqdim etmək bacarıqlarını möhkəmləndirək. |
| | **Nəticə:** f.p.VI.3., f.p.VI.4., f.p.VI.5. |

| | |
|---|---|
| **52. Göydələnlər şəhəri** | **Məqsəd:** şagirdləri XX əsrin Amerika mədəniyyəti ilə tanış edək, memarlığın və təsviri incəsənət əsərlərinin müstəqil surətdə təhlili bacarığını inkişaf etdirək; müasir incəsənətin barəsində biliyi dərinləşdirək. |
| | **Nəticə:** f.p.VI.4., f.p.VI.5. |
| **53. Müasir incəsənət** | **Məqsəd:** şagirdə müasir incəsənətin təhlili bacarığını inkişaf etdirək, onun şərti dil anlayışı bacarığını möhkəmləndirək, realistik və şərti əsərlərin müqayisəsi – təhlili bacarığını dərinləşdirək. Şərti formalara yiyələnmənin təcrübi bacarığını və öz əhval ruhiyyəsini bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.4., f.p.VI.5. |
| **54. Mücərrədçilər (Abstraksionistlər)** | **Məqsəd:** şagirdi mücərrəd incəsənətin nə olduğu, onun özünə məxsusluqları ilə tanış edək; eləcə də, bu cərəyanın aparıcı nümayəndələrinin yaradıcılığı ilə tanış edək; şagirdə konkret rəssamlıq əsərinin analizi bacarığını inkişaf etdirək; bunun əsasında şagird incəsənət əsərlərinin müvafiq mədəniyyət ilə əlaqələndirlməsini bacarsın. |
| | **Nəticə:** f.p.VI.4, f.p.VI.5. |
| **55. Nyu-Yorkda qış** | **Məqsəd:** şagirdə ətraf mühitə müşahidə etmək bacarığını inkişaf etdirək, ilin müxtəlif dövrlərini əks etdirən peyzajın yaradılması bacarığını müxtəlif rəng, həndəsi formadan istifadə etməklə möhkəmləndirək; müşahidə və əks etdirmə bacarığını inkişaf etdirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.4. |
| **56. Berlin** | **Məqsəd:** şagirdi Berlinin görməli yerləri ilə tanış edək, memarlıq abidələri və onların ayrı-ayrı formalarının təsviri-analizi bacarığını inkişaf etdirək; ətraf mühiti müşahidə etmək bacarığını işləyib hazırlayaq. Bunun əsasında şagird incəsənət əsərlərini müvafiq mədəniyyətlə əlaqələndirməyi bacarmalıdır. |
| | **Nəticə:** f.p.VI.4., f.p.VI.5. |
| **57. Berlin divarı** | **Məqsəd:** şagirdi ən yaxın tarixin faktları və onlarla əlaqədar yaradıcılıq fəallıqlari formaları ilə tanış edək. Onlarda vətəndaşlıq mövqeyinin yaradıcılıqla əks etdirilməsi bacarığını işləyib hazırlayaq, məlumatnı dərk etmək, onları keyfiyyətlərinə görə ayırmaq və onlardan istifadə etmək, bu əsərlərin təhlili və nəticələrinin alınması bacarığını işləyib hazırlayaq. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.4., f.p.VI.5. |
| **58. Ekspressionistlər** | **Məqsəd:** şagirdləri ekspressionizmin nə demək olduğu, onun özünəməxsusluqları ilə tanış edək, eləcə də bu cərəyanın qabaqcıl nümayəndələrinin yaradıcılığı ilə tanış edək; şagirdə konkret bədii əsərlərin təhlili bacarığını inkişaf etdirək. Bunun əsasında şagird incəsənət əsərlərini müvafiq mədəniyyət ilə əlaqələndirməyi bacarmalıdır. |
| | **Nəticə:** f.p.VI.4., f.p.VI.5. |
| **59. Zoopark** | **Məqsəd:** şagirdin ətraf mühiti, təbiəti, heyvanları və quşları müşahidə etmək bacarığını möhkəmləndirək; müşahidənin nəticələrinin əl işində yaddaş əsasında təsviri bacarığını gücləndirək. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.4., f.p.VI.5. |

| | |
|---|---|
| **60. Şimal paytaxtı** | **Məqsəd:** şagirdi Çin mədəniyyəti və onun əsas xarakterik xüsusiyyətləri ilə tanış edək, tənqidi təfəkkürü inkişaf etdirək, motivasiyanı və öz mülahizələrini yazmaq və təqdim etmək bacarığını gücləndirək. Çin təsviri və tətbiqi incəsənət nümunələrini tanımaq, onları xarakterizə etmək, təhlil etmək bacarığını gücləndirək. Bunun əsasında şagird incəsənət əsərlərini müvafiq mədəniyyət ilə əlaqələndirməyi bacarmalıdır. |
| | **Nəticə:** f.p.VI.4., f.p.VI.5. |
| **61. Qara tuş** | **Məqsəd:** şagirdə tuş və qələm ilə, (çöplərlə) şəkil çəkmək bacarığını inkişaf etdirək, tuş ilə şəkil çəkmək texnikasının özünəməxsusluğu biliyini möhkəmləndirək, fantaziya və arzu olunan mövzuda orijinal əsərlərin yaradılması bacarığını aşılayaq. |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2. |

| | | |
|---|---|---|
| **62. Rəngli tuş** | **Məqsəd:** şagirdə rəngli tuş ilə naturadan və yaxud yaddaş ilə çəkmək bacarığını inkişaf etdirək. | |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2. | |
| **63. Kağız** | **Məqsəd:** şagirdi kağızın yaradılması tarixi ilə tanış edək, kağız ilə plastik təsvirlər yaratmaq bacarığını, müxtəlif üsullarla kağız üzərində fakturanın əks etdirilməsi bacarığını inkişaf etdirək. | |
| | **Nəticə:** f.p.VI.2. | |
| **64. Yuxarıdan baxılmış aləm** | **Məqsəd:** şagirdə kompozisiya qurulmasının konkret üsulu – yuxarıdan baxılmış landşaftın təcrübi olaraq istifadə olunması bacarığını aşılayaq; onda əks etdirmə bacarığını oyadaq. | |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.4., f.p.VI.5. | |
| **65. İncəsənət aləminə səyahət IV** | **Məqsəd:** şagirdə müxtəlif epoxanın və ya ölkənin özünəməxsusluqlarının dərk edilməsi bacarığını aşılayaq; incəsənət əsərlərinin müstəqil surətdə axtarılması və analizi bacarıqlarını, qrup halında işləmək və təqdimat qabiliyyətlərini inkişaf etdirək. | |
| | **Nəticə:** f.p.VI.3., f.p.VI.4., f.p.VI.5. | |
| **Layihə I. Bir şah əsərin tarixi** | **Məqsəd:** şagirdə müxtəlif epoxanın və yaxud ölkənin mədəni irsinin tanınmış nümunələrinin təqdim olunması bacarığını inkişaf etdirək, bu mədəniyyətin özünəməxsusluqlarının dərk edilməsi və analizi, qrup halında işləmək və təqdim etmək bacarığını möhkəmləndirək. | |
| | **Nəticə:** f.p.VI.3., f.p.VI.4., f.p.VI.5. | |
| **Layihə II. Teatrın sehrli aləmi** | **Məqsəd:** şagirdə müxtəlif epoxanın və yaxud ölkənin mədəni irsinin tanınmış nümunələrinin təqdim olunması bacarığını inkişaf etdirək, bu mədəniyyətin özünəməxsusluqlarının dərk edilməsi və analizi, qrup halında işləmək və təqdim etmək bacarıqlarını möhkəmləndirək. | |
| | **Nəticə:** f.p.VI.1., f.p.VI.2., f.p.VI.3., f.p.VI.4., f.p.VI.5. | |
| **Yekun dərsi – 1** | **Məqsəd:** şagird tərəfindən nəzəri biliyin mənimsənilməsi və təcrübi bacarıqların etdirilməsi keyfiyyətinin yoxlanılması. Müxtəlif ölkələrin mədəniyyətinin əsas xüsusiyyətləri ilə tanışlıq. İncəsənət əsərlərinin konkret ölkə mədəniyyəti ilə əlaqələndirmək bacarığı. | |
| | | |

# 5. Müəllimin kitabının icmalı

## Komplektasiyanın tərkibi

### İstifadə etmə təlimatları

VI sinifin „Təsviri və tətbiqi incəsənət" fənninin komplektasiyası şagirdin kitabı və müəllimin kitabı qismində təqdim olunmuşdur. Şagirdin kitabında (dərslikdə) milli tədris planı ilə nəzərdə tutulmuş bütün mövzular bütövlüklə daxil edilmişdir və tədris nəticələrinə nail olmaq təmin edilmişdir.

Müəllimin kitabında verilmişdir:

- VI sinif şagirdinin dərslik barədə ümumi məlumat (məqsədlər, struktura, məzmun, metodologiya, komplektasiya);
- Təsviri və tətbiqi incəsənətdə VI sinif standartı;
- Standartın nəticələrinə nail olmaq və məzmunun qarşılıqlı matrisası;
- Müəllimin kitabının şərhi. Komplektasiyanın tərkibi, istifadə etmə təlimatları;
- Şagirdlərə istiqamətlənmiş yanaşmaların fənnin öyrənilməsi prosesində spesifikası, məqsədli yaş həddi özünəməxsusluğu;
- Xüsusi, fənn və ümumi şəffaflıq bacarıqları;

- Dərsliyin əsaslandığı şagirdə yönəlmiş tədrisin əsas starategiyaları;
- Təhsil resursları;
- Şagirdin qiymətləndirilməsi prinsipləri;
- Fəallıqların təhvil verilməsi ilə əlaqədar ümumi tövsiyələr;
- Dərsin planlaşdırılmasının ümumi prinsipləri
- Dərslərin nümunəvi ssenariləri (cəmi 16 dərsin ssenari, buradan V fəsildə 12 ssenaridir, növbəti 4 fəsildə isə bir-bir ssenari verilmişdir);
- Yekun dərslərinin materialı: testlər və krosvordlar, eləcə də onların cavabları. Eləcə də, şagirdin özünü qiymətləndirilməsi üçün rubrika – „Bilik meydanı" rubrikası verilmişdir.

Fənnin xüsusiyyəti ilə əlaqədar, zəngin illüstrasiya materialı elektron resurs simasında əlavə təqdim edilmişdir, hansı ki nəşriyyatın veb və fb-səhifələrində yüklənmiş olacaqdır.

Bütün yuxarıda sadalanan məsələlər müəllimin kitabında müvafiq normalarla qeyd edilmişdir və mündəricatda təsdiq olunmuşdur.

# 6. Fənnin tədrisi prosesində şagirdə yönəlmiş yanaşmaların xüsusiyyəti, məqsədli yaş həddinin özünəməxsusluqları

## Uşağın inkişaf etməsinin özünə məxsusluqları

### Fiziki inkişaf və onun aşağı məktəb yaşlı uşaqların psixi inkişafına təsiri.

**5-6 yaşlı uşaq**

Aşağı məktəb yaşı 5-6 ildən 11 ilədək olan dövrünü əhatə edir. Bu dövrdə uşağın həyatında elə əhəmiyyətli halların baş verməsi olur ki, bu da-oxumağa başlamaqdır.

Bu dövrdə uşağın orqanizmində intensiv şəkildə (mərkəzi və vegetativ əsəb sisteminin, sümük – əzələlər sisteminin, daxili orqanlarının) bioloji böyüməsi – inkişafı baş verir. Bu mərhələdə əsəb proseslərinin fəallaşması artır. Əsəb proseslərinin oyanması özünü saxlamaq prosesindən üstünlük təşkil edir və bu aşağı məktəb yaşlı uşaqların elə xarakterinə səbəb ki, bunlar da artmış emosional hisslərin güclənməsindən və rahatlıq tapa bilməməkdən ibarətdir. Uşaqlar üçün bir tərəfdən artmış fiziki dözümlülük və ikinci tərəfdən sürətlə yorulmaq və əsəb-fiziki proseslərin ara verməməsi xarakterikdir.

Onların əmək bacarığı 25-30 dəqiqədən sonra bir qayda olaraq aşağı düşür. Eləcə də, uşaqlar uzun müddət qrupda qalmaqdan yorulurlar və emosiyalarla yüklənmiş dərslər və tədbirlər nəticəsində yorulurlar. Əzələ sisteminin və onun idarə olunması proseslərinin inkişafı sinxronik qaydada davam etdirilməyinə görə bu yaşdan olan uşaqları motorlu fəallıqların inkişaf etdirilməsinin özünə məxsusluqları xarakterizə edir. İri əzələlərin inkişafı xırda əzələlərin inkişafını üstələyir, ona görə də uşaqlarda iri motorika bacarıqları incə motorika bacarıqlarından daha yaxşı inkişaf etmiş olur (Məsələn, yazı).

**6-8 yaşlı uşaqlar**

6 yaşlı uşaq, eləcə də məktəbəqədər yaşlı uşaqlar, oynamağı çox sevirlər, lakin indi onun əsas fəallığı – yeni, konkret adətə yiyələnmək olmalıdır.

6-8 yaşlı uşaq fiziki cəhətcə enerjilidir. Onun artıq enerjisi vardır, çox hərəkət edir. Doğrudur, o fiziki cəhətdən inkişaf etmişdir, lakin onun böyümə prosesi qeyri-bərabər davam edir. Ürəyi bədəninin proporsiyası ilə böyümür. Ona görə də, o uzun müddətə gərgin fiziki fəallıq yerinə yetirə bilmir. Ona tənəffüs dövrləri lazım gəlir.

**9-11 yaşlı uşaqlar**

Bu yaşda olan uşaq fiziki cəhətcə – **fəaldır,** adi enerjilidir ki bu da fiziki fəallığın əsasını təşkil edir. Rəvayətləri, təəssüratları, fiziki məşğələləri sevir. Bu yaşda uşaq özünün gündəlik hadisələri ilə o qədər məşğuldur ki, öz əşyalarına, geyiminə qulluq, diqqətdən kənarda qala bilər. Bu məsələlərə onun diqqətini cəlb etmək zəruridir.

**Koqnitiv (idrak) proseslərinin inkişafı**

Kiçik məktəb yaşında uşaqlarda idrakın psixi proseslərinin qeyri-iradi formasından (oyun və ya təcrübi fəallıq zamanı həyata keçirilir), psixi fəallığın istənilən, müstəqil formaya keçməsi baş verir, hansının ki, öz məqsədi, motivi, həyata keçirilmək üsulları və vasitələri vardır.

İdrak

Kiçik məktəb yaşlı uşağın dərk etməsi yetərincə xırdalıqlara məruz qalmışdır, ona görə də bu yaşda uşaq bəzən oxşar cizgilərə malik hərfləri və rəqəmləri (6-9; ş-s) bir-biri ilə qarışdırır. Ona görə də yazıb oxumağı öyrənmək işində dərk etmənin böyük əhəmiyyəti vardır.

**6-9 yaşlı uşaq**

Bu yaşda olan uşaq bir çox hallarda fiqurları tanımır, əgər o məkanda azca da olsa başqa cür yerləşdirilmişdirsə. Məsələn, bəzi uşaqlar əyilmiş və ya vertikal şəkildə verilmiş düz xətti düz kimi dərk edə bilmir.

Uşaq işarənin, rəmzin ümumi təsvirlərini dərk edir və onun elementlərini görə bilmir.

Bu yaşda olan uşağın dərki ilk növbədə obyektin özünün xarakterik xüsusiyyətləri ilə birlikdə müəyyənləşir. Ona görə də uşaqlar əşyada əsası, əhəmiyyətlisini deyil, əksinə, əşyanın nəzərə çarpan, „nəzərəçarpan“ xüsusiyyətlərini (rəng, forma, ölçü) görür.

**Müşahidə etmə bacarığı**

Uşaqlara müşahidə etməyi öyrətməyin böyük əhəmiyyəti vardır. Uşağın dərk etməsinin inkişaf etdirilməsində müəllimin böyük əhəmiyyətli xidməti ola bilər, əgər rəsmləri, şəkilləri düzgün seçərsə və ona dərk etmənin təşkilində kömək edərsə – rəsmin detallarını müəyyən ardıcıllıqla nəzərdən keçirməsini, rəsmdə müxtəlif detalları tapmağı, hissələrdən bütövü yığmağı və s. tapmağı rica edir. Kiçik yaş məktəb həddində **sintezli dərk etmə – dərk olunmuş obyektin elementləri arasında** əlaqənin **yaradılması** inkişaf edir. Əgər ona qədər rəsmin təsviri zamanı uşaq rəsmdə əks olunmuş obyektləri sadalayırdısa, indi (6-7 il) o rəsmi təsvir edə, sonra isə (8 il) onu interpretasiya etməyi bacarır. Müəllim interpretasiya bacarığını çox saylı rəngarəng tapşırıqlarla inkişaf etdirməyə çalışmalıdır.

Tədris nəticəsində bu yaşda uşağın dərki analizli olur, çünki təşkilati əlaqələndirmə xarakteri alır. Müəllim uşaqda obyektin əsas əlamətlərini, əşyaların və hadisələrin xassələrinin aşkar olunması bacarığını inkişaf etdirməlidir. Dərkin inkişafının effektik metodlarından biri – müqayisədir.

**Dərk etmə** üçün **həmçinin xarakterik olan cəhət emosionallıqdır.** Müəllimin emosional hərəkəti, qiymətləndirilməsi, uşağa xüsusi ilə böyük təsir göstərir, nəinki neytral ton ilə deyilmiş istər lap pozitiv söylənilənlər.

**Dərk etmənin sonrakı özünə məxsusluğu – dərk etmənin hərəkətlə əlaqəsidir.**

6-7 yaşında uşağın dərk etməsi uşağın təcrübi məşğuliyyəti ilə sıx əlaqəlidir. Fənnin bu fənddən istifadə etməklə dərk edilməsi uşaq üçün fəallıqların həyata keçirilməsidir, nəyinsə dəyişilməsidir, ələ alınmasıdır. Ona görə aşağı məktəb yaşlı uşaqların oxuması zamanı dərsdə əşyalara təcrübi təsir göstərmək və gözə gəlimli materialla işləməyə daha çox vaxt ayrılmalıdır.

**Dərk etmənin „sosiallaşması“** inkişaf edir, uşaq insandan gələn siqnallara üstünlük verir.

Dərk etmənin inkişaf etdirilməsində bu cür irəliləyişə baxmayaraq, bu dövrdə aparıcı yenə də əşyanın xarici görünüşü, nəzərə çarpan xarakterik xüsusiyyətidir. Bu uşağı tez-tez səhvə aparır, çünki nəticəni müəyyən, nəzərə çarpan xüsusiyyətlərinə söykənməklə edir. Məsələn, bu yaşda olan uşaq üçün əgər əşya böyükdürsə, buna görə də o həmdə ağır olmalıdır.

Kiçik məktəb yaşında zamanın və məkanın dərk edilməsinin müəyyən xarakterik xüsusiyyətləri vardır ki, bu da təbiətin, tarixin, coğrafiyanın öyrənilməsi zamanı nəzərə alınmalıdır. Zamanın və məkanın dərk edilməsi kiçik aşağı siniflərlə sıx əlaqəlidir – onların şəxsi təcrübələri ilə, bu da bu yaşda kifayət qədər azdır. Məsələn, uşaq, hansı ki bilir ki, onun babası 60 yaşındadır, ondan soruşa bilər: – „Sən dinozavr görmüsən“?. Bir halda ki onun üçün babasının anadan olması və dinozavrlar, hər ikisi „olduqca əvvəl“ baş vermişdir, ya da uşaqdan soruşsalar ki – „sizin evə qədər neçə kilometrdir?“, o mümkündür ki belə cavab versin – 1000 km. Çünki onun üçün 20, 500, 1000 km „çox uzaq“ deməkdir. Aşağı məktəb yaşlı uşağın dərk etməsini elə fəallıqlarla inkişaf etdirmək olar ki, bunlar şəkil çəkməkdən, şəkillərə baxmaqdan, onları təsvir

etməkdən, oxşarlıq – fərqləri tapmaqdan; çəkməkdən; nağılların, şeirlərin, hekayələrin dinlənilməsindən və söylənilməsindən; tapmacaların tapılmasından və s. ibarətdir. Bu fəallıqların həyata keçirilməsi zamanı uşaq obyektiv materialın yaranmasına alışır və əşyanın obyektiv xüsusiyyətlərinə məhəl qoymağa məcbur olur. Buna müvafiq olaraq, dərk etmə daha xırdalıqlara ayrılmış və təşkil edilmiş şəkildə olur.

**Diqqət**

Uşaq tədris vəzifələrinə diqqəti cəmləşdirməyi bacarmalıdır ki, o müəyyən vaxt ərzində özünün intensiv diqqətini qoruyub saxlamalı, diqqətini bir obyektdən başqa obyektə keçirməli. Lakin, 5-8 yaşında və 9-11 yaş həddində istənilən diqqət aşkar olur, yalnız onun qüvvələrinin səfərbər olması və güclü gərginliyi, yaxud kənardan göstərilən təzyiq nəticəsində diqqət mərkəzləşir. Adi situasiyada uşaq diqqətin istənilən istiqamətdə yönəldilməsində çətinlik çəkir. Aşağı məktəb yaşı üçün, zəif inkişaf etmiş istənilən diqqət xarakterikdir. Əvəzində icazəsiz diqqət yaxşı inkişaf etmişdir. Yeni, gözlənilməz, maraqlı, aydın hər nə varsa uşağın diqqətini özünə cəlb edir. Ola bilsin ki uşaq tədris materialındakı əsas detallara lazımı diqqət yetirə bilməsin və qeyri əsas cəhətləri seçsin, ona görə də uşağın diqqətini bunlara yönəltmək lazımdır.

Bundan başqa, uşağın diqqəti düşüncələrlə sıx əlaqədardır, buna görə də ona aydın olmayan, qaranlıq materiala diqqəti cəlb etmək çox çətindir.

Birinci sinif şagirdləri və qismən də ikinci siniflilər uzun müddətə, eyni istiqamətə diqqət yönəldə bilmirlər. Xüsusi ilə, əgər iş maraqsızdırsa və monotondursa bunu etmək daha çətin olur. Bunun nəticəsində, uşaq tapşırığı yerinə yetirə bilmir, sözdə hərfləri, cümlədə sözləri buraxır. 5-6 yaşlı uşaq bir istiqamətə doğru 15-20 dəqiqə ərzində cəlb edə bilər. 1-2-ci sinifdə diqqət xarici fəallıqları yerinə yetirərkən daha möhkəmdir, nəinki əqli fəallıqlar zamanı. Ona görə də əqli fəallıqların təcrübi fəallıqlarla əvəz olunması vacibdir (şəkil çəkmək, qəlibləmə, mahnı, məşq). Yalnız üçüncü sinif şagirdləri bütün dərs müddətində diqqətlərini cəmləşdirə bilirlər. Diqqətin bu xüsusiyyəti psixologiyada – diqqətin möhkəmliyi (diqqətin uzun müddətə bir və eyni istiqamətə bir və həmin obyektə yönəldilməsi) adlanır. Aşağı məktəb yaşı pis intizam və oxumaq çətinliklərinin səbəblərindən biridir, istənilən diqqətin zəifliyi bunun əlamətidir. Buna görə də, istənilən diqqətin formalaşmasını və onun inkişafının nece olduğunu bilmək vacibdir. Istənilən diqqət, iradədən fərqli olaraq orqanizmin yetişməsi məhsulu deyil. Onun formalaşması sosial məzmunda, uşağın və böyüyün, müəllimin qarşılıqlı əlaqələri nəticəsində baş verir. İstənilən diqqətin formalaşması üçün uşağın fəallığın təşkili mühüm əhəmiyyət kəsb edir.

Ətraf mühitin dərki zamanı uşaq ilk olaraq yalnız müəyyən obyektləri ayıra bilir, sonra isə bütün vəziyyəti təsvir etməyi bacarır və axırda isə interpretasiyanı. Bununla yanaşı, ilkin olaraq şagird diqqətini böyüklərin onun qarşısına qoyduğu məqsədə doğru yönəldə bilir, sonra isə özünün məqsədlərinə doğru da eyni cür addım atır. İstənilən diqqətin inkişafının ilkin mərhələsində, böyümüş uşaq, sözlə, və yaxud jestlə ətraf mühitdəki obyektləri seçə bilir və uşağın diqqətini beləcə cəlb edir. Məsələn, müəllim deyir – „hazırlaşın, rəngli karandaşlarınızı, rəsm albomunuzu çıxardın“.

**Yaddaş**

Yaddaş 5-6 yaşlı uşağın aparıcı psixiki prosesidir. Bu yaşda yaddaş iradəsiz xarakter daşıyır ki, bunada səbəb odur ki, uşağın hələlik yadda qalası materialın dərk etmə bacarığı inkişaf etməmişdir, assosiasiyalardan az istifadə edir, çox kiçik təcrübəsi vardır və yadda saxlamaq texnikasını bilmir. Əgər hər hansı bir hadisə uşaq üçün emosional cəhətdən əhəmiyyətli idisə və onda təəssürat yaratdısa, bu halda iradəsiz yaddaş böyük dəqiqliklə və sabitliklə xarakterizə olunur.

Məlumdur ki, aşağı sinif uşağı „mənasız“ materialı daha asan yadında saxlaya bilir; obyektiv surətdə mənalı, ancaq onun üçün aydın olmayan sözlər ifadələr, şeirlər yadında qalmır. Bunun səbəbi materialın səsləndirilməsi zamanı uşağın əlahiddə emosionl münasibətidir (əgər o oyun fəallığına qoşulubsa). Bununla yanaşı, başa düşülmüyən məlumatın özü də uşaqda hadisəyə həvəs göstərmək hissləri oyada bilər və uşaq o hadisəyə diqqət yetirə bilər.

Aşağı məktəb yaşlı uşaqların yaddaşının aparıcı formaları – **emosional və əyani –** şəkilli **yaddaşdır.** Uşaqlar gözlə görünən, aydın, maraqlı materialı asan və möhkəm yadda saxlaya bilirlər, hansıları ki onlarda emosional təsir oyatmışdır.

O ki qaldı əyani – şəkilli yaddaşa, uşaqlar konkret əşyaları, hadisələri, simaları daha asan yadda saxlayırlar, nəinki, izahatı, təsviri, aydınlaşdırmanı. Ona görə də tədris materialının daha yaxşı yadda saxlanılması üçün böyük miqdarda nəzərə çarpacaq materialdan istifadə olunmalıdır. Halbuki yadda saxlanılmış təsvir çox güman ki müəyyən vaxtdan sonra dəyişikliyə uğrasın – itsin, yaxud da ayrı-ayrı detallara məruz qalsın.

Deməli, aşağı məktəb yaşlı uşaqlar konkret hadisələri daha yaxşı yadda saxlayırlar, hansıları ki, emosional komponent xarakterizə edir. Nə zaman ki biz söhbət edirik ki, aşağı sinif yaşlı uşaqların yaxşı əyani – şəkilli yaddaşları vardır, həm vizual (həm də akustik), yadda saxlamalıyıq ki yaddaşın bu forması istənilən bərpaya çox çətin tabe olur. Eyni zamanda bu o demək deyildir ki, uşağın ümumiyyətlə yaxşı yaddaşı vardır. Yaxşı yaddaş ənənəvi olaraq sözlərin, məzmunun yadda saxlanılmasını nəzərdə tutur. Ancaq azyaşlı şagirdlər, xüsusən də birinci və ikinci sinifdə sözlü məlumatı öyrənərkən, onların mexaniki yadda saxlamaları aşkar olur. Məzmunun sözlərlə mətnə yaxın bərpası böyüklər tərəfindən qiymətləndirilir ki, uşaq ev tapşırığını vicdanla yerinə yetirmişdir və yüksək qiymətləndirməyə layiqdir. Bu isə uşağı buna təlqin edir ki, öyrəniləsi materiala ciddi yanaşsın, mümkün qədər mətnə yaxın olsun. Həm də, onlar hələ ümumiləşdirmək bacarığına malik deyillər, nitqləri o qədər inkişaf etməmişdir ki, öyrənilmiş materialı öz sözləri ilə ifadə etsinlər. Ona görə də səhv edəcəklərindən qorxaraq, onlar mətni sözbəsöz bərpa edirlər.

Kiçik məktəb yaşlı uşaqlara dərs deyən pedaqoq verbal və məntiqi yadda saxlamanın inkişafı, yəni rəmzi yaddaşın inkişaf etdirilməsi üzərində işləməlidir. **Verbal yaddaş** nitq bacarığı ilə əlaqədardır və son nəticədə 10-13 yaş həddində formalaşır. Məzmunu öz sözləri ilə dəqiq bərpa etməsi onun xarakterik xüsusiyyətidir.

**Məntiqi yaddaşın** xarakterik xüsusiyyəti mətnin əsas məğzinin yadda saxlanılmasından ibarətdir. Ona görə də, məntiqi yadda saxlama dərk etmə ilə sıx əlaqədədir. Məntiqi yadda saxlamanın üsullarından biri materialın düşüncə ilə qruplara bölünməsidir. Aşağı məktəb yaşlı uşaqlar bunu (texnikadan müstəqil istifadə edə bilmirlər (mətni təhlil edə bilmirlər, əsası, vacib olanı ayırmaq bacarığına malik deyillər).

Müəllim yaddaşın bu formasının inkişaf etdirilməsində uşağa kömək etməlidirlər. Materialın təhlili aparılmalıdır, ayrı-ayrı hissələr bir-birindən ayrılmalıdır, düşüncəli, (çətin yadda qalan).Öyrənilməli materialı başa düşmək, öyrənmək motivasiyasının formalaşdırılması əhəmiyyətlidir.

Tədrisi prosesinin əsaslandığı istənilən yaddaş zaman-zaman idraki pisixi prosesə çevrilir.

Materialın yadda saxlanılması üçün 8-10 yaşlı uşaqlar təkrar etmə texnikasından fəal istifadə edirlər ki, bunu da 5-6 yaşlı uşaqlar edə bilmirlər. Əgər 5-6 yaşlı uşağa materialın yadda saxlanılması üçün ətraf mühitin texniki istifadə edilməsini öyrədiriksə, onlar bu texnikadan istifadə edirlər, bu da yadda saxlamanı əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Halbuki, yeni materialın verilməsi zamanı bunun barəsində hökmən bildirmək lazımdır (spontan halda istifadə olunmur).

7-8 yaşlı uşaqlar eləcə də qruplaşma texnikasından istifadə edirlər. Məsələn, deyək ki, 6 rəqəmin yadda saxlanılması vacibdir – 3, 5, 4, 8, 7 və 1. Onların asan yadda saxlanılması məqsədi ilə onları 3 qrupa (35-48 -71) və yaxud iki qrupa (354-871) bölə bilərik. Məlumatın yadda saxlanılması üçün həcm deyil, hissələrin miqdarı təsir göstərir. Eləcə də buna oxşar obyektləri, qruplara ayıra bilərik. Məsələn, meyvə və bostan məhsulları. 5-6 yaşlı uşaqlar bu texnikadan spontan qayda ilə istifadə edə bilərlər, lakin bunu axıra qədər dərk edə bilmirlər (fayda görə bilmir), bundan necə istifadə edəcəklərinin başa düşmürlər. Buna bənzər vəziyyət 8-9 yaşlı uşaqlarla və hətta yeniyetmələrlə də baş verə bilər.

## Təfəkkür

**Təfəkkür idrakın psixi prosesidir ki bunun vasitəsi ilə məqsəd – nəticənin** əlaqəsi **və münasibəti yaranır** – ətraf aləmdə baş verən hadisələr ilə obyektlər arasında əlaqə yaranır.

Uşağın idrak fəallığı və hadisələrə münasibəti ətraf mühitin dərk edilməsinə yönəlir. Təfəkkür nitq ilə bilavasitə əlaqədədir. Uşağın əqli fəallığı nə qədər yüksəkdirsə, o bir o qədər çox və rəngarəng suallar verir – Bu nədir? Bu kimdir? Nəyə görə? Nə üçün, nədən, kim və s. və ilaxır.

Bir qayda olaraq, sual verərkən aşağı məktəb yaşlı uşaqlar real vəziyyəti təsəvvür edirlər. **Təfəkkürün forması, nə zaman ki tapşırığın yerinə yetirilməsi daxili planda baş verir, dərk etmə və təsəvvürə gətirmə** əsasında **həyata keçirilir, bu aydın – obrazlı təfəkkür adlanır.** Məhz, təfəkkürün bu forması məktəb yaşlı uşaqlar üçün xarakterik olan formadır. Uşaqlar sözlə deyilmiş fikri başa düşməkdə çətinlik çəkirlər, əgər onların aydın əsaslandığı obyekt  yoxdursa. Əlbəttə, bu yaşda uşağın məntiqi təfəkkürü də ola bilər, lakin uşaq o tədris növünə daha həssasdır, hansı ki aydınlığa söykənir.

6-8 yaşlı uşaq – **müşahidəçidir.**

Doğrudur, birinci sinif şagirdi olduqca güclü müşahidə bacarığınınə malikdir, lakin o hər şeyi başa düşmür, hər nə görürsə, onu dərk edə bilmir, çünki onun intellektual imkanları hələlik tam deyildir. Yaşlılar onun intellektual imkanlarını qiymətləndirə bilərlər, buna görə də uşaq tez-tez elə detallar görür ki, iri yaşlılar

bunları görmürlər. Birinci sinif şagirdləri „burada" və „indi" kateqoriyaları ilə düşünürlər. Vaxt, məkan və say anlayışlarında çətinlik çəkirlər. O, yeni materialı mənimsəyə bilər, əgər həmin material onun üçün tanış olan məlumat ilə əlaqədar olarsa. Ona görə də, pedaqoq uşağın nə bildiyini və yeni biliyi köhnə ilə necə əlaqələndirməyi yaxşı bilməlidir.

9-11 yaşlı uşaq – **tədqiqatçıdır.**

Bu yaşda uşaq da eləcə yaxşı müşahidəçidir, lakin daha diqqətlə müşahidə edir və məntiqi düşünür. Çoxlu suallar verir və onlara özü cavab tapa bilər.

Bu yaşda uşaq onun üçün əhəmiyyətli olan miqdarda hər şeyi toplayır və bu zaman keyfiyyət nəzərə alınmır. 11 yaşadək o öz kolleksiyasının klasifikasiyasını aparmır (əgər, əlbəttə bu işdə ona böyüklər kömək göstərməyiblərsə). Pedaqoq uşağın bu xüsusiyyətini maarifləndirmə məqsədi ilə istifadə edə bilər. Uşaq daha diqqətli olur, kolleksiyanın müzakirəsi və yaxud dəyişdirilməsi zamanı isə şəxsiyyətlər arası münasibətlərə üstünlük verir.

Uşaq yalnız onun üçün naməlum olan əşyanı tədqiq etməyi sevir. Bu yaşda o artıq məqsəd – nəticə münasibətlərini başa düşür, vaxt (xronoloji və tarixi ardıcıllıq), məkan, yerləşmə, məsafəni yaxşı dərk etmə bacarığını inkişaf etmişdir. O, başa düşdüyü və gördüyü məsələ haqda mülahizə yürüdür.

# 7. Xüsusi qayğıya ehtiyacı olan şagird

Əgər **sinifdə xüsusi təhsilə ehtiyacı olan** şagird **vardırsa (XTEŞ – həm məhdud imkanlara malik, eləcə də,** əlahiddə **istedadla mükafatlandırı**lmış şagirdlər **nəzərdə tutulur),** müəllim çalışmalıdır ki, hər bir şagirdə öz imkanlarını aşkar etməyə və həyata keçirməyə kömək etməlidir. Xüsusi istedadla mükafatlandırılan və yaxud məhdud imkanlara malik şagirdi müəllim diqqət mərkəzində saxlamamalı və ona artıq diqqət və ya rəğbət göstərməməlidir. Müəllim təsviri və tətbiqi incəsənətin və ya başqa fənlərin dərslərində sinifdə bərabər hüquqluluğun qayğısına qalmalıdır. **Müəllim** şagirdlərin **fərdi ehtiyaclarının nəzərə alınması ilə hər bir** şagirdin **dərsə maksimum cəlb olunmasını və buna müvafiq olaraq, onların inkişafına və ya nailiyyətlərinin yaxşılaşdırlmasının qayğısına qalmalıdır.** Onun fərqli imkanlarına baxmayaraq, şagird başa düşməlidir ki, təsviri və tətbiqi incəsənət dərsində ondan nə tələb olunur. Bu zərurətdən irəli gələrək, həm şifahi, həm də yazılı və ya kombinasiyalı təlimatlar vermək mümkündür. Zərurət olduğu təqdirdə müəllim başqa aydın vasitələrdən də istifadə etməlidir.

Xüsusi təhsilə ehtiyacı olan şagirdləri aşkarlayan zaman, böyük ehtiyatla hərəkət etməliyik ki, o özü bir tərəfdən şagirdin davranış xüsusiyyətlərinin **düzgün olmayan interpretasiyasını** başdan eləmək mümkün olsun, digər tərəfdən isə xüsusi təhsilə tələb edən statusu doğru olmayaraq verilir, harada ki, buna ehtiyac yoxdur. Bu isə öz növbəsində tədris prosesinin səmərəsiz planlaşdırılmasına, qoşulmanın düzgün olmayan strategiyalarına və səmərəsiz tədbirlərin həyata keçirilməsi deməkdir.

Fərdi tədris planının işlənib hazırlanmasına qədər uşağın həm psixoloji, eləcə də akademik qiymətləndirilməsi, güclü və zəif tərəflərinin aşkara çıxarılması – nə bacarır, nə bacara bilmir, aşkar edilməlidir. Uşaq üçün müvafiq uzun müddətli və qısa müddətli məqsədlərin işlənib hazırlanması qiymətləndirməyə əsaslanaraq baş verməlidir.

Məktəb tədris ilinin başlanğıcından bir həftə ərzində o şagirdin və yaxud şagirdlərin siyahısını müəyyənləşdirir, hansılar ki, modifikasiyalı tədris planı ürzə oxumağa məhkumdurlar. XTEŞ şagirdin aşkar olunmasından bir ay ərzində məktəb işçi qrupunu yaradır və şagirdin ehtiyacları ilə əlaqədar fərdi tədris planı işlənib hazırlanır; komanda da o müəllimlər birləşirlər, hansılar ki bilavasitə şagirdə dərs deyirlər (başqa fənnin müəllimi ilə birlikdə təsviri və tətbiqi incəsənət müəllimi də) bu qrupa daxil edilir, eləcə də: valideyn himayədar, psixoloq, həkim və başqa köməkçi heyət. İşçi qrupuna sinif rəhbəri nəzarət edir; multi-fənn komandası görüşləri semestrdə minimum iki dəfə keçirməlidir, burada cari prosesləri təhlil edirlər, nəticələr barədə söhbətlər aparırlar və qısa və uzun müddətli vəzifələri işləyib hazırlayırlar; hər bir semestrin axırında bir yekun görüşü təşkil edilir, bütün görüşlər protokol ilə qeyd edilir və şagirdin şəxsi işində saxlanılır; fərdi tədris planını pedaqoji şura təsdiq edir.

# 8. Xüsusi, fənn və ümumi nüfuz edici bacarıqlar

Təsviri və tətbiqi incəsənətin xüsusi, fənn kompentensiyalarını bu fənnin tərkib hissəsi olan nəzəri və təcrübi xarakterli bilik və işlənib hazırlanmış bacarıq-qabiliyyətlər inkişaf etdirir. Fənnin xüsusiyyəti ilə əlaqədar şagirdə həm konkret bədii yaradıcılıq sferasının dərki/başa düşülməsi, eləcə də, öz ideyalarının, emosiyalarının əhval ruhiyyəsinin verilməsi, özünü realizə kompetensiyaları inkişaf edir, hansılara ki, o təsviri və tətbiqi incəsənətin əsas prinsiplərinə və texnologiyalarına yiyələnməlidir, onun üsullarını, elementlərini və prosedurlarını tanımalı və istifadə etməlidir. İşlənib hazırlanmalı bacarıqlar – bacarıqlar arasında bu səlahiyyətlər incəsənətin rolunun və təyinatınən dərk edilməsinə və ümumdübya mədəniyyət məzmununa xidmət edir **(təhlil və tənqidi təhlil bacarığı)**, şagirdə müxtəlif tip problemlərin həlli **(problemin həlli bacarığını)**, yaradıcılıqla yanaşmağı öyrədir və alışdırır. Onu istənilən sahədə öz ideyalarını və hisslərini əks etdirmək və bunlar barədə mülahizə yürütməyə alışdırır **(özünü** əks **etdirmə və yaradıcılıq təfəkkürü bacarığı)**, ictimai həyata öz xidmətini daxil etmək istəyini oyandırır **(fəal vətəndaşlıq mövqeyi və milli** özünü **dərk etmənin yüksəldilməsi)**, məlumatın müstəqil əldə edilməsi, onun dərk edilməsi, interpretasiya alışqanlığını (tədqiqat – axtarış bacarığı) inkişaf etdirir, əməkdaşlıqla oxumaq və işləmək, ictimaiyyət ilə qarşılıqlı əlaqə yollarını (kommunikasiya bacarığı) öyrədir, Obyektiv olmağı və fəaliyyətin bütün sahələrinə özünü tənqid formsında yanaşsın **(özünü qiymətləndirmə və oxuma bacarığı)**.

Beləliklə, təsviri və tətbiqi incəsənətin öyrənilməsi şagirdin xüsusi dərslik kompetensiyalırını inkişaf etdirir ki, bunun da son məqsədi aşağıdakılardır: gözəllik hisslərinin inkişafı, təsvirin və fantaziyanın aşkar olunması, insəsənət əsərlərini dərk etmə bacarığı, incəsənətin universal dilinin dərk edilməsi bacarığınıdir ki, bunlar da gürcü və dünya mədəniyyəti dəyərlərinin bir vahid şəkildə dərk edilməsi imkanlarını verir və onda estetik dərk etmənin möhkəm əsasını yaradır.

**Priorit nüfuz edici kompetensiyalar**

**Savadlılıq,** oxumaqdan, yazmaqdan, dinləməkdən başqa həm də danışmaq məqsədi ilə dildən istifadə etmək bacarığını nəzərdə tutur, – dəyişik məzmunda oxumağı, yazmağı, məlumatı işləməyi, ideyaların və mülahizələrin deyilməsini, qərarların qəbul edilməsini və problemlərin həll edilməsi bacarığını nəzərdə tutur ki, bu da o biliyin əsasında olmalıdır, hansını ki, insan bütün həyatı boyu qazanır;

**Media savadlılıq –** ənənəvi mətnlərlə yanaşı multimedia mətnlərinin (yəni elə mətnin, hansı ki, eyni zamanda istəmədən istifadə edir, səsli və vizual vasitələri nəzərdə tutur). Dərk etmə/idrak bacarığını inkişaf etdirir. Şagird bu cür multimedia mətnlərini dərk etməli – başa düşməlidir, interpretasiya, istifadə etmə və yaratma bacarığına yiyələnməlidir. Bununla yanaşı, bu da əhəmiyyətlidir ki, şagird media aləmində alınmış məlumatnı tənqidi qiymətləndirə bilsin ki, bu da tənqidi düşüncəni inkişaf etdirməyin rəhnidir.

**Rəqəmsal və ya kompüter savadlılıq,** hansı ki, şagirdlərdə müasir dünyada yaradıcılıq və innovasiya yanaşmalarının işlənib hazırlanmasını şərtləndirir; beləliklə, fənnin sahə kompetensiyaları ilə tam uyğun gəlir.

**Miqdar savadlılıq –** sayın əsasının dərk edilməsi, rəqəmlər arasında münasibətlərin anlaşılmasına, miqdarların bir-biri ilə müqayisə edilməsinə, şagirdlərdə riyaziyyata və başqa fənlərə diqqət yetirməkdə kömək edir.

**Ekoloji savadlılıq** ətraf mühitə insanın sağlam münasibətinin formalaşdırılmasını nəzərdə tutur və bir halda ki, ətraf mühit, ona təsviri və tətbiqi incəsənətin öyrənilməsi üçün məlumatın ən əhəmiyyətli mənbələrindən biridir, ekoloji savadlılığa tədris prosesində xüsusi rol ayrılır.

**Çoxdilli səlahiyyətli** dillərə yiyələnmək və ondan istifadə etmək deməkdir ki, bu da istənilən fənnin çərçivəsində inkişaf etdirilməsi mümkündür.

**Semiotik səlahiyyət** məlumatın nişanələrinin bir sistemdən ikinciyə keçirilməsini nəzərdə tutur. Fənnin xüsusiyyəti ilə əlaqədar məhz bu səlahiyyət ən əhəmiyyətli sahə səlahiyyətidir, çünki şagirdə məlumatın verbal və ya qeyri-verbal (sxem, xətirə, melodiya və s.) interpretasiyasını etmək imkanı verir və öz düşündüklərini və yaxud təəssüratlarını incəsənətin vasitəsi ilə əks etdirmək bacarığı aşılayır. Məsələn, söz mətni və yaxud musiqi əsəri vasitəsi ilə verilmiş fikrin illüstrasiya vasitəsi ilə əks olunması, sözlü mətinin və ya rəsmin bir-biri ilə əlaqələndirilməsi bacarığınıdir, hansı ki, təsviri və tətbiqi incəsənət fənni üstün inkişaf etdirir. Təlim tədris tədris prosesinin müstəqil idarə olunması bacarığıdır, bu da tədris prosesinin vacin tərkib hissəsidir. Müəllim uşaqlardan diqqəti tədris prosesinə, onun gedişinə yönəltmək xahişi ilə müraciət edir. Şagirdə o faktorların

və şəraitlərin dərk olunmasında kömək göstərsin, hansılar ki ya tədris prosesinin gedişinə mane olur, ya da ona kömək göstərir; o üsulları və yanaşmaları aşkar etdirsin, hansılar ki, tədris nəticələrini asanlaşdırar və yaxşılaşdırar, tədrisin strategiyasının müstəqil istifadə olunması bacarığını aşılayar;

**Sosial-mülki səlahiyyət** vətəndaş həyatına inteqrasiya olunmaq üçün vacib olan elə bacarıqların və dəyərlərin formalaşdırılmasını nəzərdə tutur ki, bunlar da aşağıdakılardır. Konstruktiv əməkdaşlıq, problemlərin idarə olunması, tənqidi və yaradıcılıq düşüncələri, qərarların qəbul edilməsi, dözümlülük, başqasının hüquqlarına hörmət etmək, demokratik prinsipləri qəbul etmək və s. İncəsənətin tədrisi prosesində fərqli estetika və yaradıcılıq yanaşmalarının mövcudluğu müəllim üçün bu kompetensiyanın inkişafına xüsusi əhəmiyyət hüququ verir.

# 9. Dərsin əsaslandığı şagirdə yönəlmiş tədrisin əsas strategiyaları

**„Strategiya 3, 2, 1“**

Bu strategiya filmə baxılan zaman, gəzməli-görməli yerlərə baxış zamanı, mətnlə tanış olmaq prosesində, layihənin başa çatdırılmasından sonra istifadə olunur. Bu metod motivasiyanı gücləndirir, gəzməli-görməli dinləyici və oxucu formalaşdırır, tənqidi düşüncəni inkişaf etdirir. Bu metod üç mərhələdən ibarətdir:

1. Tədris məqsədi ilə əlaqədar müəllim şagirdlərə mətni oxumağı, filmə baxmağı və ya gəzməli-görməli yerləri nəzərdən keçirməyi təklif edir.
2. İkinci mərhələdə müəllim şagirdlərdən xahiş edir ki, onları maraqlandıran 3 məsələ yazsınlar; buradan 2 məsələni seçsinlər, hansıları ki daha çox başa düşmək istəyirlər və qalan o bir məsələ üzrə razılığa gəlsinlər, hansını ki gələcəkdə müzakirə edəcəklər.
3. Şagirdlər öz əl işlərini təqdim edirlər.

**„Strategiya: sinfi tərk etdikdən sonra yadımda nə qalacaqdır“**

Müəllim dərsin başa çatmasına 10 dəqiqə qalmış þagirdlərə kiçik ölçülü vərəqlər paylayır və onlara həvalə edir ki, bu vərəqləri doldursunlar (öz ad və soyadlarını yazsınlar və s.), sonra isə bir kiçik abzasın vasitəsi ilə sıra və düzgün yazma normalarına əməl etməklə, öz fikirlərini formalaşdırsınlar, onun barəsində öz mülahizələrini bildirsinlər ki, bu konkret dərs onlara nə öyrətdi və nəyi başa saldı, oxunmuş mətn onlara nə verdi, və yaxud baxdıqları film onlara nə təsir göstərdi. Sinif otağını tərk etdikdən sonra onların yaddaşında nə qaldı.

Koqnitiv diaqramla iş şagirdlərə dərsdə verilmiş əhəmiyyətli məlumat dərk etməkdə kömək göstərir. Şagirdlərə öz ideyalarını, məsələyə nəzarət mexanizmi ələ almaq imkanı verilir, hansı ki, hissənin və bütövün, anlayışın və detalların qarşılıqlı müəyyənləşdirilməsi və vizual surətdə göstərilməsinə kömək edəcəkdir. Koqnitiv diaqramlarla işləmək şagirdlərin aktivliyinin və müstəqilliyinin artmasının ən yaxşı vasitəsidir. Tədris prosesində koqnitiv diaqramların istifadə olunması pedaqoqun rolunu əhəmiyyətli dərəcədə dəyişmişdir və funksiyasını artırmışdır, müəllimlərin struktur, əməli dərslərin planlaşdırılması işini asanlaşdırmışdır, akademik tərəqqinin və bacarıqların işlənib hazırlanması üzərində nəzarət və qiymətləndirmənin son dərəcə mükəmməl texnikasını, tədris prosesinin daha rəngarəng olmasına və yaradıcılıq məzmunu daşımasına kömək göstərmişdir. Müqayisə zamanı, əsasən iki tip qrafik sxem istifadə olunur Venn diaqramı və müqayisə matrisası.

**Müqayisə** əşyalar və ya ideyalar arasında oxşarlıqlar və fərqlərin interpretasiya prosesidir.

**Təsnifat** əşyaların kateqoriyalar üzrə qruplara ayrılması prosesindən ibarətdir ki, bu da onların xarakterlərinə əsaslanır.

O, elementlərin qruplara bölünməsini, onlar arasında oxşarlıqların əsaslarını nəzərdə tutur. Təsnifat zamanı elə qaydaların identifikasiyası başlıca rol oynayır, hansı ki sinif ilə kateqoriyalara mənsubiyyət müəyyənləşdirilir. Təsnifatın məşğələləri üzrə iş zamanı müəllim hazır elementlərin təsnifatı həyata keçirməlidir. Müəllim şagirdlərə məlumatı elə kateqoriyaları barədə məlumat verir (qrup, sahə, janr, üslub) ki, bunlara əsasən şagirdlər verilmiş elementlərin təsnifatını həyata keçirməlidirlər. Bu cür məşğələdə başlıca cəhət şagirdin dəqiq müəyyənləşdirici elementinin kateqoriyasını təsbit etməkdən və bunu dərk etməkdən ibarətdir ki, bu və ya digər element nəyə görə məhz bu və ya digər kateqoriyaya aiddir.

**Müqayisə prosesi** o zaman səmərəlidir, nə zaman ki, müəllimin məqsədi şagirdlərə eyni xüsusiyyətlərə malik əşyalar arasında mövcüd olan oxşarlıq və fərqlilikləri göstərməkdir. bu prosesin nəticəli olması üçün şagirdlərə yaxşı düşünülmüş, formalaşdırılmış fəallıq tövsiyə etməlidir ki, bu da o deməkdir ki, müəllim şagirdlərə o xarakterik xüsusiyyətləri göstərməlidir, hansıların ki vasitəsi ilə hadisələri və incəsənət nümunələrini müqayisə etməlidirlər. Bu cür fəallıqlar müəllimə bu imkanı verir ki şagird tərəfindən söylənilmiş mülahizələri müvafiq (zəruri) nəticələrin əldə edilməsinə yönəltsin.

1. **„Venn diaqramı"** bu metodlu diaqram nisbi analiz imkanı verir və müxtəlif epoxanın, üslubun və cərəyanların (nümunələrin) əl işlərinin müqayisəsi zamanı olduqca effektlidir. İki və ya daha çox dairədən ibarətdir. Venn diaqramı aşağıdakı cür doldurulmalıdır: birinci və ikinci hissədə fərqli nişanələr, faktlar, hadisələr yazılır, üçüncüdə isə buna oxşarlar.

Sxemin fərqli qiymətləndirilməsi mümkündür. Birinci və ikinci hissələr ayrı-ayrılıqda doldurulur və hər iki hissədə eyni cür olanlar üçüncüyə keçir.



**Diaqram 2. Venn diaqramı**

2. **Müqayisə matrisası** detallarla yanaşma zamanı daha çox istifadə olunur, nəinki venn diaqramı. Oxşarlıq və fərqlərin meydana çıxması təsnifat zamanı da əhəmiyyətlidir, çünki müəyyən elementlərin təsnifatı və məhz oxşarlıqların və fərqlərin identifikasiyası ilə başlanır. Təsnifat elementin qruplara ayrılmasını, o cümlədən oxşarlıqların əsasında. Məs., şagirdlər memarlıq formalarını – ən qədim sivilizasiyadan müasir memarlıq nümunələrinə qədər (daxil olmaqla), onları müqayisə etmək əsasında tədqiq edirlər. Şagirdlər Xeops piramidası ilə Parisdəki şüşə piramidanı bir-biri ilə müqayisə edirlər.

| **Xarakterik xüsusiyyətlər** | **Müqayisə olunası nümunələr** | | | |
|---|---|---|---|---|
| | **# 1** | **# 2** | **# 3** | |
| **1** | | | | **Oxşarlıqlar** |
| | | | | **Fərqliliklər** |
| **2** | | | | **Oxşarlıqlar** |
| | | | | **Fərqliliklər** |
| **3** | | | | **Oxşarlıqlar** |
| | | | | **Fərqliliklər** |
| **4** | | | | **Oxşarlıqlar** |
| | | | | **Fərqliliklər** |

**„Strategiya: bilirəm – bilmək istəyirəm – nə başa düşdüm"**

Əgər müəllimin məqsədi bundan ibarətdir ki, şagirdlərin diqqətini özünə maksimum cəlb etsin və onları bu və ya digər məsələ barədə düşündürsün, bu zaman müəllim şagirdə formalaşdırlmış və mərhələlərlə yanaşma təklif edir bu metod diqqəti cəlb etməyə kömək göstərir, şagirdə diqqətini cəmləmək bacarığı

aşılayır; onun əvvəlki biliyini fəallaşdırılmasına nail olur, materialın bütövlüklə dərk edilməsinə kömək göstərir; tənqidi düşüncəni inkişaf etdirir; sual vermək bacarığını inkişaf etdirir; materialda verilmiş əhəmiyyətli cəhətə alışdırır; onu göstərir ki şagird nə öyrəndi və bu materialı hazırlamaqla nəyə nail oldu; motivasiyanı gücləndirir.

Müəllim hər bir şagirdə həvalə edir ki, verilmiş məsələ ilə əlaqədar məlumat ilə tanış olanadək, birinci və ikinci qrafanı, məlumat ilə tanış olduqdan sonra – üçüncünü doldursunlar.

| **Bilirəm** | **Bilmək istəyirəm** | **Nə başa düşdüm** |
|---|---|---|
| | | |

## Didaktik oyunlar və yeniyetmənin koqnitiv və yaş inkişafı

Ümumiyyətlə, qəbul olunmuş və elmi surətdə təsdiq edilmişdir ki, oyunun, bir davranış qaydası kimi, əsasında ləzzət almaq durur. Uşaq üçün oyunun əsas motivi fəallıqlardan həzz almaqdır. Oyun barədə söhbət açarkən başlıca cəhət budur ki onun psixoloji və koqnitiv əsaslarına toxunasınız. Oyun zamanı davranış impulsu funksionaldır, yəni uşağın davranışını funksional həzz idarə edir. Ona görə də, nə zaman ki uşaq məktəbə gedir və oxumağa başlayır, onun intellektual funksiyalarının işə salınması üçün oyundan istifadə etmək daha səmərəlidir, yəni tədrisin oyunla idarə edilməsi daha əl verişlidir.

Bilik almaq, onu möhkəmləndirmək və tədris bacarıqlarının inkişaf etdirilməsi üçün bir çox hallarda həvəsləndirici, tapmacalı məşqlərdən – didaktik oyunlardan istifadə olunur.

## Didaktik oyunlar rəngarəngdir. Bu oyunlar aşağıdakılar ola bilər:

1. Həvəsləndirici
2. Düşündürücü
3. Məntiqi
4. İnkişaf etdirici
5. Tapmaca xarakterli
6. Simulyasiya
7. İntellektual

Didaktik oyunlar, koqnitiv inkişaf nəzəriyyəsinə əsasən iki qrupa bölünür:

| 1.Qrup | 2.Qrup |
|---|---|
| Bu tip didaktik oyun zamanı uşağın düşüncəsi məntiqi olur, lakin yenə də dərk etmə müəyyənləşdirilmiş olur. Nəzərə alınmışdır ki, uşaq problemi yalnız öz gözləntisinə əsasən müzakirə edir. | Bu tip didaktik oyun zamanı uşaqlar təsnifat zamanı səhvlər buraxmırlar, ona görə ki düşüncə yalnız dərk etmə ilə məhdudlaşmır. Didaktik oyunun mürəkkəbləşməsi ona görə baş verir ki bu yaşda (7-11 yaş) yeniyetmənin düşüncəsində kütlənin, həcmin və çəkinin həmişəliyi əsas anlayışlar olur. Digər tərəfdən, məntiqi əməliyyatların yerinə yetirilməsi yalnız o zaman mümkün olur ki, real əşyalar ona görə uşaqları tez-tez tapşırığın yerinə yetirilməsindən real surətdə ayırır ki, onlar bunu formal səviyyədə-düşüncə ilə, təsvir etməklə bacara bilmirlər. |

**„Bağban“ didaktik oyunu**

„Bağban“ şagird onun çox sevdiyi 3, 4, 5 meyvənin adını sadalamalıdır.

Şagirdlər müxtəlif meyvələrin adını çəkirlər. Bir və eynən eyni adın təkrarı mümkündür. Müəllim yazı taxtasında şagirdlər tərəfindən söylənilən adları qeyd edir və yazı taxtasında „bağın panoraması“ meydana gəlir.

Sonra müəllim həvəsləndirici suallarla oyuna başlayır. O belə suallar verir:

Çiyələyi dərmək üçün ağaca çıxmalısan?

Qırmızı qarağatı qoparmaq üçün ağaca çıxmalısan?

Gilas otdur? Onu qoparmaq üçün otun yarpaqlarını o tərəf bu tərəfə atmalısan ki onu tapasan?

Bundan sonra müəllim yazı taxtasında üç sütunlu cədvəl cızır və içərisində yazır: ağac, kol, ot. Şagirdlər həvəsləndirici sual cavabın nəticələrinə əsasən cədvəli doldururlar.

| Ağac | Kol | Ot |
|---|---|---|
| Alma<br>Armud<br>Şaftalı<br>Heyva | Qırmızı qarağat<br>Malina<br>Moruq | Çiyələk |

Didaktik oyun tədrisin elə vasitəsidir ki, bu imkan verir ki tədris vəzifəsinin alışdırmaq vasitəsi ilə uşaq əvvəlcədən təşəbbüs olmadan biliyə yiyələnir.

Məsələn, oxucular teatrını müzakirə edək. O elə bir didaktik oyundur ki, bunun vasitəsi ilə sualın mükəmməl qoyulması mümkün olur – bu və ya digər əsərin şifahi həllini ki, şagirdlər dərk etmək üçün məşq edirlər – özü də sual yolu ilə. Bundan başqa, onlar söhbət etməkdə püxtələşirlər, onlarda ədəbiyyata daha böyük həvəs yaranır.

**Kiçik ölçülü mətn lazımdır, hansı ki, 10-15 dəqiqədə oxunur və dialoqlardan ibarətdir ki, şagirdlər üçün rolların bölüşdürülməsi imkanını verir.**

**Oxucular teatrını təşkil etmək üçün aşağıdakı proseduralar həyata keçirilməlidir:**

- Sinifdə mətni oxumaq üçün həvəskarlar seçilməlidir;
- Hər bir oxucuya mətnin surəti verilməlidir və müəllim bədii oxu variantını dinləməlidir;
- Bundan sonra müəllim mətni sinif ilə birlikdə oxumalıdır;
- O şagirdlərdən xahiş etməlidir ki mətni jestlərlə, mimikalarla, intonasiya oxusunlar;
- Şagirdlər mətni teatral oxumalıdırlar;
- Onlar səhnələri bir neçə dəfə təkrar etməlidirlər ki, onların oxuduqları mətn daha dramatik və rəvan olsun.

Heç təəccüblü deyildir ki, uşaqlar oyunu xüsusi ilə sevirlər. Bu zaman onlar həyati cəhətdən zəruri olan qabiliyyətlər və qaydalar mənimsəyirlər, sosial təsəvvürlərini zənginləşdirirlər və mürəkkəb və problematik situasiyalardan özlərini müdafiə etmək yollarını mənimsəyirlər. Didaktik oyun tədrisin əlahiddə vasitəsidir. Ondan istifadə etməklə müəllim tədris vəzifəsini çox gözəl təsvir edə bilər və şagirdə təbii olaraq, stres keçirmədən bu biliyə yiyələnə bilər. Qeyd olunan strategiyadan istifadə etmək o tip dərs növləri üçün səmərəlidir, harada ki, iş qrup formasında aparılır, funksiyalar bölünmüşdür.

### Diferensiasiya nəzəriyyəsi və tədris prosesində ondan istifadə etmək

Diferensiasiya nəzəriyəyəsi nəticəyə əsaslanır ki, buna əsasən şagirdlər arasında əhəmiyyətli fərqlər mövcuddur (K. Tomlinson). Bu nəticə əsasında diferensiasiya nəzəriyyəsi bizə strategiya təklif edir ki, bu da müəllimə kömək göstərir, əlahiddə şəraitlər yaratmağa və hər bir şagirdin biliyə yaxşı yiyələnməsinə imkan verir. Bunun üçün müəllim müxtəlif növ tədris materialdan istifadə edir, fərqli tapşırıqlar verir və başqa cür təcrübəyə əl atır.

Diferensiasiya nəzəriyyəsinin təcrübədə tətbiq olunması zamanı müəllim sinfin fasilitasiyasının ümumi prinsiplərinə əsaslanır ki, bunlar da hər bir şagird ilə münasibətdə səmərəlidir. Həmin nəzəriyyəyə əsasən, tədris zamanı dərsdə həyata keçirilən fəallıqların

- Məzmun
- Proses
- Məhsul

**Onunla əlaqədar sistematik surətdə dəyişir ki, uşaqlar nəyə hazırdırlar. Diferensiasiya nəzəriyyəsinin təcrübədə tətbiqi zamanı:**

1. Müəllim dəqiq bilir ki, dərsdə ən başlıca cəhət hansıdır;
2. Müəllim şagirdlər arasında fərqləri dərk edir, qiymətləndirir və onlar arasında fərqlərə söykənir;
3. Tədris və qiymətləndirmə bir-biri ilə əlaqədədir;
4. Müəllim diqqət yetirir və məzmunu, prosesi və nəticəni qaydaya salır;
5. Şagirdlərin fərdi nailiyyətləri və müvəffəqiyyətlərin maksimum artması iki başlıca məqsəddir;
6. Tədrisin bütün mərhələsində (planlaşdırma, tədris, qiymətləndirmə) müxtəlif vasitələrə əl atmaq diferensiasiyasının həyata keçirilməsi üçün olduqca vacibdir.

**Sinif otağında diferensiasiya nəzəriyyəsinin təcrübi olaraq həyata keçirilməsi zamanı müəllim aşağıdakı komponentlərin modifikasiyasını başa çatdırır:**

- Tədris materiallarının;
- Tədris resurslarının;
- Tədris mühitinin;

**Modifikasiya 3 əsas amilə görə vacibdir:**

1. Oxumaq imkanı;
2. Oxumaq modifikasiyası;
3. Oxumaq səmərəliliyi.

**Bu hər üç aspekti mütləq bir-biri ilə əlaqələndirməliyik;**

- Müəllimin hazırlığı ilə;
- Maraqla;
- Oxumaqla.

Burası da faktdır ki bütün uşaqlar bir-birilərindən fərqlidirlər. „Standart" şagird mövcud deyil və ideal üsul mövcud deyil ki, bununla müəllim bütün şagirdlərin problemlərini qaydasına salsın. Diferensiasiya nəzəriyyəsi məhz bu zaman bizə kömək göstərir, hansı ki, şagirdlər arasında əhəmiyyətli fərqlərin mövcudluğunu qəbul edir. Tədris prosesinin planlaşdırılması zamanı o tədrisin modallaşdırılması nöqteyi-nəzərindən diferensialı yanaşma tətbiq edir. Onlara əsaslanmaqla müəllim şagirdlərin fərqləndirilməsinin tədris məqsədi ilə nəzərdə tutulmuş nəticələrə nail olmaq üçün bu üsuldan istifadə edir.

Tədrisin modalları bunlardır:

- Dinləmə;
- Vizual;
- Ginestetik.

**Vizual öyrənənlər**

Vizual öyrənənlər sinfin ən iri qrupunu təşkil edirlər. Bu cür şagirdlər öyrənilesi materialı ona görə „görməlidirlər" ki o anlaşılan olsun. Əhəmiyyətli cəhət burasıdır ki, vizual kömək vasitələri olmalıdır ki bunların vasitəsi ilə onlar məlumatı görə bilsinlər. Bunun üçün onlara şəkillər, qrafiki dərsliklər, otaqda asılmış məlumat və vizual resurslar lazım gəlir.

Tomlinson vizual vasitə ilə öyrənənlərə aşağıdakı kimi xarakterizə edir:

- Şagirdlər adları yadda saxlamaqda çətinlik çəkirlər, lakin insan barədə başqa detalları daha yaxşı mənimsəyirlər;
- Onlar biliyə çox yaxşı yiyələnirlər, əgər vizual vasitələr biliyin aydınlaşdırılması üçün əl çatandırsa;
- mətni özlərinin oxumasına üstünlük verirlər və başqasının oxumasını vacib saymırlar;
- Onlar köçürmə vasitəsi ilə düşüncələrini nizamlayırlar;
- Dinləmə yolu ilə alınmış direktivlərin yadda saxlanılmasında çətinlik çəkirlər;

- Sifətinin ifadələri ilə emosiyalarını tez-tez büruzə verirlər;
- „Pazlları“ və buna bənzər əyləncələri sevirlər.

Yadımızda saxlamalıyıq ki sinifdə vizual həvəsləndirmə daxil etməklə biz bu cür şagirdlərə nailiyyətlər qazanmaqda kömək göstəririk. Yadımızda saxlamalıyıq ki, onlar üçün məlumatı „görmək“ daha əhəmiyyətlidir.

**Dinləməklə öyrənənlər**

Dinləməklə öyrənənlər sinfin kiçik qrupunu təmsil edirlər. Çox mümkündür ki multimedianın, bugünkü texniki vasitələrin günahı burdadır ki, o şagirdlərin miqdarı,  oturmaqla və dinləməklə öyrənən şagirdlərin sayı, multimedianın, bugünkü texniki vasitələrin ucbatından çox azalmışdır. Bu cür şagirdlər üçün məlumatın dinlənilməsi daha əhəmiyyətlidir – bu istər mühazirə olsun, istərsə də diskussiya – lakin onlara danışmaq imkanı vermək lazımdır.

Sprencer yazır: „nə zaman ki bu kateqoriyadan olan şagirdlər mətni oxuyurlar, yaxud da bəzən hətta bu zaman oxumurlar, tez-tez görə bilərik ki onlar öz dodaqlarını tərpədirlər və ya öz-özlərinə mızıldanırlar. Ümumiyyətlə, belə uşaqlar öz-özləri ilə danışmağa meyillidirlər.

Bu cür uşaqlar bir çox hallarda eşitmək yolu ilə məlumatı ardıcıllıqla yaddaşlarında saxlayırlar və bu məlumatların bərpası da ardıcıllıqla baş verməlidir. Müəllimlər, hansılar ki demək olar ki tamamilə eşitmə yolu ilə tədrisə əsaslanırlar, çox güman ki problem qarşısında qala bilərlər, əgər başqa modalların şagirdləri ilə iş aparırlarsa, ən çox da kinestetiklərlə.

**Alimlər dinləməklə öyrənənlərə aşağıdakı xarakteristikanı verməyi təklif edirlər:**

- Dinləməklə öyrənənlər adları daha yaxşı yadlarında saxlayırlar, nəinki sifətləri;
- Əgər sinif otağında uzun müddət otururlarsa, özlərini nadinc aparırlar;
- Fiziki həvəsləndirməyə diqqət yetirirlər bu diqqət yetirmə, məsələn, əl ilə kürəyini sığallamaq ola bilər;
- Konkret mövzu barədə qrup halında diskussiyada iştirak etməyə daha üstünlük, nəinki onun barəsində oxunmağa.
- Yadda saxlamalıyıq ki, onlar sinif otağının rahatlıq səviyyəsini hiss edirlər və bu hadisənin təsiri altında hərəkət edirlər;
- Diqqətləri səs-küyə asan yayılır; yaxşı nağıl danışandırlar; şifahi çıxışdan daha çox yazılı işə üstünq lük verirlər.

**Kinestetik vasitə ilə öyrənmə**

Sprencer deyir: „hər bir dərs hərəkəti əhatə etməlidir. Bu hərəkəti götürün və onu tez-tez təkrar edin. Axırda o daimi yaddaşa çevrilir“. Əgər düzünü desək, pedaqoqlar, hansılar ki mühazirə tip dərslərə üstünlük verirlər, kinestetik öyrənmə zamanı böyük çətinliklərlə qarşılaşacaqlar. Bu qisimdən olan şagirdlərə hərəkət lazım gəlir. Onlara həmçinin elə tədris modeli lazımdır ki, bunların vasitəsi ilə onlar əllə tuturlar və toxunurlar. Bu cür şagirdlərə təcrübi fəallıqlarda iştirak etmək və təcrübi öyrənmək ona görə lazımdır ki tədris materialı onlar üçün başa düşülən olsun. Tədqiqatçılar kinestetik öyrənənlər barədə aşağıdakı xarakteristikanı tövsiyə edirlər:

- Özləri yaradan zaman daha yaxşı yadda saxlayırlar. Bunu görməkdən və dinləməkdən üstün tuturlar;
- Problemi həll edərkən tez-tez elə üsullara əl atırlar ki bunlar yüksək fiziki fəallıq tələb edir;
- Dinləmək tələb edən prosesi sevmirlər;
- İmitasiyaları, dramatik səhnələri və açıq səma altında fəallıqları sevirlər.

Yadda saxlamaq lazımdır ki onlar modelləri sevirlər və tez-tez modelləri müstəqil layihələr üçün düzəldirlər; öz emosiyalarını „bədən dili “ ilə əks etdirirlər.

Başlıca cəhət bundan ibarətdir ki öyrənərkən müxtəlif metodlara müraciət etmək lazımdır – elə metodlara, hansılar ki şagirdlərin baxması, dinləməsi və hərəkətini tədris fəallıqlarında istifadə etməklə aparılmasını nəzərdə tutur.

Məlum olduğu kimi bütün daxil olan göstəricilərə əsasən ağıl perseptik qeydiyyatçı və yaxud retikulativ aktivasiya sistemi (RAS) vasitəsi ilə uyğunlaşır. Bu güclü sistem sürətlə həll edir ki – ona diqqət yetirməyə dəyirmi, yoxsa dəymirmi. Əgər sensor yaddaşda mövcud olan məlumat tezliklə kodlaşdırılmadıqda, o itir. Şagirdlərin hansı kodlaşdırmanı həyata keçirdikləri isə ondan asılıdır ki onlar nəyə diqqət yetirirlər. Diferensiasiya nəzəriyyəsini tətbiq edərkən müəllim fəallıqları müxtəlif modullu şagirdlər üçün planlaşdırır,

səmərəli tədris mühiti yaradır, bununla da sinifdə olan müxtəlif imkanlara malik şagirdlərə oxumaq imkanı yaradır. Nə zaman ki şagirdə tədris materialı verilir, müvafiq modallaşmada məlumatın sürətlə kodlaşdırılması baş verir və o itmir.

**Sinif otağında diferensiasiya nəzəriyyəsindən istifadə etmək müxtəlif formatda mümkündür:**

1. Tədris materialı və fəallıqlar bütün moduldan olan şagirdlər üçün nəzərdə tutulmuşdur;
2. Sinifdə qrupların yaradılması tədris modallarının əsasında baş verir və hər bir qrup üçün müvafiq məşğələ yaradılmışdır.

Birinci format o mülahizəyə əsaslanır ki, şagird bütün modallarla oxuyur, lakin dominantlıq modallardan biridir və bu formatla öyrənmək zamanı materialın maksimum başa düşülməsi o fəallıqlarla nail olunur, hansılar ki hər bir şagird üçün hansı modallaşdırma onun üçün dominantdır. Ona görə də bu formatda öyrənməyin nailiyyəti ondan asılıdır ki, müəllim fəallıqların səviyyəsində diferensiasiya nəzəriyyəsinin həyata keçirilməsini nə dərəcədə düzgün yerinə yetirə bilir.

İkinci format bu mülahizəyə əsaslanır ki, başlıca cəhət bundan ibarətdir, şagird onun üçün dominant olan modallığı öyrənsin. Bu formatla öyrənməyin səmərəliliyi iki faktordan asılıdır:

1. Müəllim qrupların komplektləşdirilməsini müvafiq modallara əsasən necə düzgün bacarmışdır;
2. Tədris fəallığı konkret modallaşdırma çərçivələrində nə dərəcədə düzgün adaptasiya edilmişdir.

Ikinci modallaşma daha populyardır, lakin təhsil mütəxəssisləri daim birinci formatın səmərəliliyini qeyd edirlər. Yaş xüsusiyyətlərinə görə inkişafla yanaşı qarışıq modalla öyrənmənin keyfiyyəti artır, lakin dominantlıq modalı insanda axıradək qala bilir. Mümkündür ki, dərsin planlaşdırılması o mülahizəyə əsaslansın ki, şagird bütün modalla öyrənir, lakin hər bir fəallıq çərçivələrində bunlar meydana çıxır ki, modallıq dominantdır, yəni diferensasiya nəzəriyyəsi fəallıqlar səviyyəsində həyata keçirilir.

Bu sualları qoymaq əhəmiyyətlidir:

Bundan sonra nə baş verir, yaxud da məsələnin dərindən dərk edilməsi, yüksək dərk etmə bacarığının inkişaf etmə nöqteyi-nəzərindən nə dərəcədə aktualdır; şagird təhlili, sintezi və qiymətləndirməni nə dərəcədə bacara bilir – əldə edilmiş bilik nə dərəcədə dinamik və transferikdir? Ondan sonra, nə zaman ki şagirdlər məlumatı qəbul edir və onun üzərində işləyirlər, o ağıl süzgəcindən keçirilir. Məhz ağıl həll edir, bu məlumat ilə nə etmək mümkündür. Dərk etmə prosesi o faktorları müəyyənləşdirir, hansılar ki, şagirdlərə materialı daha dərindən öyrənməyə və bir-biri ilə əlaqələndirməkdə kömək göstərir. Bunun üçün isə müəllim müxtəlif rolları icra etməli olur: 1. Bəzi şagird üçün o aşkarlanma prosesində həmkar olur. 2. Bəzi şagird üçün müəllim məşqçi rolunu yerinə yetirir. 3. Elə uşaqlarda vardır ki, onlar üçün müəllim təlqin etmə rolunu yerinə yetirir. 4. Müəllim buna borcludur ki, məzmunun çıxarılmasında bəzi uşaqlara kömək göstərməlidir. Müəllimin müxtəlif rolları tədris prosesinə diferensial yanaşma ilə əlaqədardır, çünki diferensiasiya nəzəriyyəsi şagirdlər arasında mövcud olan əhəmiyyətli fərqləri və hər bir şagirdin unikallığını qəbul edir.

# 10. Təhsil resursları

Xüsusilə bu dərslik üçün hazırlanmış aşağıdakı növ təhsil resursları:

- Elektron resurslar (hər dərs üçün illüstrasiya materialı);
- Rəsm proqramları;
- İncəsənət barədə audio/video material (linklər)

Bu resurslar nəşriyyatın veb səhifəsində öz əksini tapmışdır və hər bir müəllim üçün əl çatandır.

Müəllim hər bir dərs üçün məxsusən VI sinfin dərsliyi üçün yaradılmış elektron resursdan əlavə illüstrasiya materialı kimi istifadə edə bilər, bu resurslar nəşriyyatın veb səhifəsinə yüklənir. Bundan başqa, məhz veb səhifədə rəsm proqramlarının və audio və video materiallarının linkləri göstəriləcəkdir. Bu materiallardan istifadə etmək tədrisin məqsədinə müvəffəqiyyətlə nail olmağı və səmərəli surətdə həll edilməsini təmin edir.

# 11. Şagirdin qiymətləndirilmə prinsipləri

Tədrisin nəticələrinə nail olmağın təminatı və təlim/tədrisin keyfiyyətinin idarə olunması şagirdin qiymətləndirilməsi ilə həyata keçirilir. Qiymətləndirmə rəngarəng metodlarla və böyük intensivliklə həyata keçirilməlidir və bu da şagirdin imkanlarının gələcək inkişafının ilkin şərti kimi nəzərə çarpır.

V-VI siniflərdə şagird 10 ballıq sistemlə qiymətləndirilir.

Şagirdin qiymətləndirilməsindən məqsəd tədris keyfiyyətini yaxşılaşdırmaqdan ibarətdir. Qiymətləndirmə bütün tədris ili boyunca, sistematik şəkildə aparılır və şagirdin imkanlarının maksimum aşkar edilməsinə imkan yaradır. Eləcə də burası əhəmiyyətlidir ki qiymətləndirmə müxtəlif imkanlara malik şagirdləri eyni şəraitlərdə qoymalıdır.

İncəsənət dərsinin spesifikası ilə əlaqədar, qiymətləndirmənin müxtəlif formalarından istifadə olunmalıdır: yazılı və şifahi fəallıqlar, yaradıcılıq təcrübi işi, eksperimentlərin keçirilməsi, arqumentləşdirilmiş mülahizələr, layihədə iştirak etmək, sərginin təşkil olunması və onda iştirak etmək, materialın toplanması və sistemləşdirilməsi, mədəni həyata inteqrasiya.

Qiymətləndirmə sistemində 2 tip qiymətləndirmə tətbiq olunmalıdır: müəyyənləşdirici və inkişaf etdirici.

Müəyyənləşdirici qiymətləndirmə ilə şagirdin biliyinin keyfiyyəti və şagirdin qazandığı nailiyyətlərin səviyyəsi, yəni tədrisin nəticəsi müəyyənləşdirilir ki, bu da öz əksini xallarda tapır. İnkişafetdirici qiymətləndirmə tədrisin keyfiyyətinin yüksəldilməsinə, şagirdin potensiyalının inkişaf etdirilməsinə və onun irəliləyişinə, yəni bu halda onun tədris prosesində dinamikasının qiymətləndirilməsinə şərait yaradır. İnkişaf etdirən qiymətləndirmə formaları və vasitələri bunlardır: müəllimin şərhi, özünü qiymətləndirmə sorğusu, müəllimin tövsiyəsi.

| Qiymətləndirmənin tipləri və onlardan vaxta əsasən istifadə etmək | | |
|---|---|---|
| | **Müəyyənləşdirici** | **İnkişafetdirici** |
| **Cari** | **Gündəlik tapşırıqların yerinə yetirilməsi, dərsə qoşulmaq, layihənin hansısa mərhələsi və ya başqaları, hansılara ki qiymət yazılır.** | **Gündəlik tapşırıqların yerinə yetirilməsi, dərsə qoşulmaq, təcrübənin hər hansı bir mərhələsi və s. hansını ki şagirdə izah edirik, nəticələri necə yaxşılaşdıraq.** |
| **Yekunlaşdırıcı** | **Hər hansı bir mövzunun, vaxt bölgüsünün, layihənin sonunda alınmış qiymət** | **Hər hansı bir mövzunun, vaxt bölümünün, layihənin sonunda alınmış sözlə qiymətləndirmə, şərh, rubrika ilə qiymətləndirmə və s.** |

**Semestr qiymətinin tərkib hissələri**

Şagirdin qiyməti onun tərəfindən fənninin tədrisinin müxtəlif tərkib hissələrindən irəli gəlməlidir. Şagirdlər aşağıdakı üç tərkin hissəsinə əsasən qiymətləndirilirlər:

a) Ev tapşırığı;

b) Sinif tapşırığı;

c) Yekunlaşdırıcı tapşırıq

Hər üç tərkib hissəyə müvafiq olaraq eyni cür çəkisi vardır.

Təlim/tədris prosesində inkişaf etdirici və müəyyənləşdirici tip qiymətləndirilmələrdən istifadə olunur.

İnkişafetdirici qiymətləndirmə şagirdin ardıcıllıqla inkişaf etdirilməsi prosesini nəzarətdə saxlayır, nail olunmuş nəticələri də və kəsirləri də (qüsurları da) qeyd edir, tədrisinin keyfiyyətinin yaxşılaşdırılmasına imkan yaradır. Bu qiymətləndirmə müəllimə imkan verir ki şagirdin nailiyyətlərinə diqqət yetirsin, onun ehtiyaclarını qeydə alsın, sonra isə onun inkişafına şərait yaratsın. Nöqsan/çatışmazlıq aşkar edilən zaman şagird ümid edir ki, müəllim ona yaxşı nəticə əldə etmək üçün hansı cəhətə diqqət yetirmək lazım gələcəyini izah edəcəkdir, tədris motivasiyasına mane olunmur və həvəs azalmır. Yeni biliyə yiyələnmə prosesində müəllim və şagird birlikdə şagirdin güclü və zəif cəhətlərin müəyyənləşdirilməsinə, o faktorların identifikasiyasına birgə çalışırlar, hansılar ki, mümkündür ki, maneə rol oynayırdılar və onların aradan

qaldırılması taktikasını da müəyyənləşdirirdilər. Bununla yanaşı, şagirdə özünü qiymətləndirmə bacarığı formalaşır, onun düşüncə tərzi və məsuliyyəti artır. İnkişaf etdirməli qiymətləndirmə şagirdə öz nailiyyətlərinə münasibətdə qiymətləndirir, onun irəliləməsini və gələcək inkişaf perspektivlərini göstərir. İnkişaf etdirici qiymətləndirmə elə elementləri əhatə edir ki, bunlar qiymətləndirmə və özünü qiymətləndirmə sxemlərindən ibarətdir. Qiymətləndimə müəllimin şərhini və məsləhət – tövsiyələrini, müşahidəni tətbiq edir; qiymətləndirmə və qarşılıqlı qiymətləndirmə sxemlərinə söykənir. İnkişaf etdirici qiymətləndirmə biliyin mənimsənilməsinə, yəni bacarığın inkişaf etdirilməsi səviyyələrinə və mərhələlərinə söykənir. Beləliklə qiymətləndirmə şagirdin nailiyyətlərini dinamikada qiymətləndirir.

İnkişafetdirici qiymətləndirmənin məqsədini tədris keyfiyyətinin yaxşılaşdırılması və şagirdin inkişafına kömək göstərmək təşkil edir. Onun qiymətləndirilməsi obyektini tədris prosesi təşkil edir, qiymətləndirmənin nəticəsi isə fərqli fəallıqların tövsiyə olunmasını tələb edə bilər, tədrisin başqa strategiyasının seçilməsini, konkret tövsiyənin verilməsinin qərara alınmasını tələb edər. İnkişaf etdirici qiymətləndirmənin köməyi ilə müəyyənləşdirmək mümkündür ki konkret irəliləyişə nail olunubmu (şagirdin öz nailiyyətlərinə münasibətdə).

Müəyyənləşdirici qiymətləndirmə tədrisin keyfiyyətinin yoxlanılmasının tətbiq olunmasını tələb edir və Milli Tədris Planı ilə və fənn standartı ilə müəyyənləşdirilmiş tədris nəticələrinə nail olmağı nəzərdə tutur. Müəyyənləşdirici qiymətləndirmə I-IV siniflərdə şərti işarələrlə qiymətləndirir. V-VI siniflərdə isə xal ilə.

Tədris prosesində şagirdlər üç komponentə əsasən qiymətləndirilir.

- Ev tapşırığı
- Sinif tapşırığı
- Yekunlaşdırıcı tapşırıq

İnkişaf etdirici qiymətləndirmə həm sinif, həm də ev tapşırıqlarının qiymətləndirilməsi zamanı tətbiq olunur. Müəyyənləşdirici qiymətləndirmə isə yalnız yekunlaşdırıcı komponentin qiymətləndirilməsi zamanı tətbiq edilir. Öz növbəsində, yekunlaşdırıcı tapşırıq şagirdin kitabının (dərslikdə öz əksini tapır və qiymətləndirilir) bir struktur elementinin (özünün) öyrənilməsinin sonra şagird tərəfindən nail olunmuş nəticələrin, yəni standartla müəyyən olunmuş normaya münasibətdə əldə edilmiş biliyə və bacarıq-qabiliyyətlərə yiyələnmə səviyyəsinə əsasən qiymətləndirilir.

Yekunlaşdırıcı tapşırıqlara qiymətləndirmə rubrikası, tapşırığın tipinin nəzərə alınması ilə, yəni nəzəri və təcrübi işin qiymətləndirilməsi əlavə olunmalıdır.

Yekunlaşdırıcı tapşırıqların yerinə yetirilməsi bütün şagirdlər üçün məcburidir. Müsbət və ya mənfi yekunlaşdırıcı qiymətləndirmə almaq halında arzu edilәndir ki müəllim yazılı şərh etməlidir ki bu da bir halda nöqsanın aradan qaldırılmasının rəhni olacaqdır, digər halda isə, şagirdə motivasiyanın yüksəlidilməsinə xidmət edəcəkdir.

## Qiymətləndirmə komponentləri

### Sinif tapşırığı

1. **Təcrübi iş, bir neçə meyara əsasən qiymətləndirilir:**
   - Təsviri və tətbiqi elementlərin və prinsiplərin texnikanın və materialın əldə edilməsi
   - Yaradıcılıq yanaşması, orijinal qərarın qəbul edilməsi
   - Təşkilatçılıq (vaxt limitinə əməl etmək, lazımı material/avadanlıq, sistemlilik)
   - Qrup halında işləmək bacarığı, əməkdaşlıq
2. **Özünün və başqasının əl işinin müzakirəsində iştirak etmək**
3. **İncəsənət əsərlərinin təhlili/müzakirəsi,  bir neçə meyara əsasən qiymətləndirilir:**
   - Müzakirədə fəal iştirak etmək
   - Fikri əsaslandırmaqla nəzərə çarpdırmaq
   - Özgəsinin fikrinə qarşı hörmət nümayiş etdirmək

4. **Özünün və başqasının əsərlərinin təqdim edilməsi, hansı ki aşağıdakı kriterilərə əsasən qiymətləndirilir:**

- Deyilənin aydın söylənilməsi; auditoriya ilə əlaqə
- Önəmlilikdən və texniki vasitələrdən istifadə etmək
- Suallara müvafiq cavab vermək

Ev tapşırığı:

- Təcrübi iş
- Məlumatın və vizual materialın axtarılıb tapılması
- Referat, ESSE

Yekunlaşdırıcı tapşırıqlar:

- Miqyaslı təcrübi əl işi
- Sərgi
- Testləşdirmə/krossvord
- Məruzə/referat (bədii əsərlərin, yaradıcının, dövrün barəsində)

**Semestr qiymətlərinin tərkib hissələri**

Şagird aşağıdakı tərkib hissələrə əsasən qiymətləndirilməlidir:

a) Cari sinif tapşırıqlar;

b) Ev tapşırığı;

c) Yekunlaşdırıcı tapşırıq (testləşdirmə və təcrübi iş);

Hər bir fənnin öyrənilməsi zamanı, məktəb kafedraların vasitəsi ilə birinci beşdən ən azı komponent müəyyənləşdirir, hansılara ki 90% çərçivələrində faiz ağırlığı verir. Qalan 10 % -in bölünməsi müəllim tərəfindən artıq şagirdlərlə razılaşma əsasında bölünür. İlk dəfə müəllimlər şagirdləri kafedra tərəfindən işlənib hazırlanmış komponentlərlə tanış edirlər və izah edirlər ki hər bir komponentin qiymətləndirilməsi zamanı nə gözləyirlər. Bundan sonra şagirdlərlə birlikdə o meyarları axtarırlar, hansılar ki, onların fikrincə, yaxşı olardı ki müsbət 10 % çərçivələrində istifadə edilmiş olaydılar. Müəllimlər yaxşı olardı ki bu komponentlərin dərk edilməsində şagirdlərə kömək edəydilər, lakin əhəmiyyətli cəhət burasıdır ki şagirdlər özləri bu komponentin nədən ibarət olduğunu və qiymətləndirmə səviyyələrini özləri həll edəydilər.

**İnkişafetdirici qiymətləndirmənin alətləri**

İnkişafetdirici qiymətləndirmə aləti kimi nəyin yararlı olduğunu siz özünüz də fikirləşə bilərsiniz. İstənilən qədər alət mövcuddur, hansıları ki müəllim sizə təklif edəcəkdir – bir çox başqa müəllimlər sınamış və qəbul etmişlər. O ki qaldı artıq sınaqdan çıxmış inkişafetdirici qiymətləndirmə alətlərinə, bir dəqiqəlik esse, yekun məktubu, özünü qiymətləndirmə, həm yaşıdların qiymətləndirilməsi „işıqfor" və s. bunlar arasındadır. Aşağıda kifayət qədər tanın alətləri təqdim edirik, bu alətləri bu gün bir çox müəllimlər tətbiq edirlər.

**Yekun məktubları**

Dərsin sonunda müəllim şagirdlərə kiçik vərəqlər verir – „yekun məktubları", xahiş edir ki, anonim şəkildə bir və ya iki suala cavab verin və masanın üstündə qoyun. Şagirdlərdən biri məktubları yığışdırır.

Suallar aşağıda verilmişlərə oxşar ola bilər, yaxud da tamamilə özünüz seçdiyiniz suallar ola bilər.

- İki ən əhəmiyyətli məsələni, hansıları ki bu gün ilk dəfə eşitdiniz, yazın. Bu məsələlər nəyə görə əhəmiyyətlidir?
- Bu gün nə öyrəndin?
- Bu bilikdən gündəlik həyatımda necə istifadə edəcəyəm?
- Hansı məsələ qaranlıq qaldı və nəyə görə?

Yekun məktubları sizə şagirdin nədə çətinlik çəkdiyini, sizin dərsinizin necə keçdiyini, məqsədə çatıb çatmadığınızı müəyyənləşdirməkdə karınıza gələcəkdir. Növbəti dərsdə mütləq əvvəlki dərsin kiçik yekunlaşmasını edin və o məsələlərə diqqət yetirin, hansıları ki şagirdlər öz məktublarında qeyd etmişlər. Buna əsasən, hansı sinfə yekun məktubları daxil edirsiniz, buna binaən cavablar da müxtəlif ola bilər. Bəzən şagirdlər məktubların qiymətləndirilməsinə o qədər də diqqət yetirmirlər, halbuki, əgər onlara göstərsəniz ki, suallara cavab vermək nə ilə nəticələnir, bu zaman onların münasibəti dəyişəcəkdir.

**Sualların qoyulması**

Sualların qoyulması inkişaf etdirilməli qiymətləndirmənin ən güclü alətlərindən biridir, ancaq bu da nəzərə alınmalıdır ki istənilən sual inkişafetdirici qiymətləndirməyə xidmət göstərmir. Əgər sual yüksək səviyyəli düşüncə bacarığınına deyil, yalnız faktiki biliyi yoxlayırsa, müəllim şagirdin yeni materialı nə dərəcədə başa düşdüyünü anlamır. Məsələn, sual – „hər hansı bir konkret əsər hansı ildə yaranmışdır? Lakin sonrakı sual – „bayram əhval ruhiyyəsi, sevindirici emosiyaları vermək üçün hansı bədii üsullardan istifadə edilmişdir: aydın parlaq rənglərmi, yoxsa solğun, tünd rənglər qammasımı?" „İnkişafetdirici qiymətləndirmə məqsədi ilə istifadə etmək olar". Şagirdlər rənglərdən istifadə etmə prinsiplərini bildikləri zaman, bu cür sual həqiqətən göstərəcəkdir ki məsələ nə dərəcədə dərindən mənimsənilmişdir.

**Səndən kiçiyə izah et/ nənənə izah et**

Şagirddən xahiş edin ki öz kiçik dostuna (təsvirlə, yaxud belə təsəvür etsinlər ki, bu kiçik dost yanında oturan şagirddir) yeni anlayışı müəllimin onlara izah etdikləri kimi yox, ən sadə üsulla izah etsinlər. Şagirdlərə izah edin ki təsəvvür olunan dost, o cümlədən mövcud olan yaş fərqi üzündən, mümkündür ki, bir xeyli az biliyə yiyələnə bilsin. Ona görə də onlar üçün vəzifəni o təmsil edir ki, verilmiş anlayışı müəllimin izah etdiyindən bir çox daha asan dil ilə verə bilsinlər. Diqqət yetirin, şagirdlər yeni anlayışları necə izah edirlər ki, başa düşsünlər, şagirdlər məsələni nə qədər dərindən dərk etdilər / mənimsədilər. Əgər qərara alsanız ki bununla şagirdlərin nənələrini təhqir etmisiniz, onda bu aktivliyi belə dəyişdirin: „nənənizə izah edin".

**Həmyaşıdların qiymətləndirilməsi**

Unutmamalıyıq ki, həmyaşıdların qiymətləndirilməsi inkişafetdirici qiymətləndirmənin ən yaxşı alətidir və müəllimdən böyük əzmkarlıq göstərmək tələb olunmur. Şagirdlərdən xahiş edin bir-birilərinin ev tapşırıqlarına baxsınlar və düzgün olmayan cavablara şərhlər əlavə etsinlər (xallar deyil əgər yenə də hər halda xallardan istifadə etməyi qərara alsanız, onlara mütləq şərhlər əlavə olunmalıdır). Şərhlər təkcə onu təsvir etməməlidir ki, orada düzgün olmayan nədir, eləcə də əl işinin yaxşılaşdırılması yolları da öz əksini tapmalıdır. Bu strategiya müəllimdə onun barəsində daha yaxşı təsəvvür yaradır ki, şagirdlər materialı nə dərəcədə başa düşdülər.

**Texnologiyalar və inkişafetdirici qiymətləndirmə**

Eləcə də növbəti fəallığı sınaqdan keçirə bilərsiniz, hansı ki şagirdlər tərəfindən texnologiyaların istifadə olunmasına həvəsləndirər və eyni zamanda inkişafetdirici qiymətləndirmə aləti kimi də kara gələ bilər: şagirdlərə həvalə edin ki yeni öyrənilmiş anlayış ilə əlaqədar reklam hazırlasınlar. Onlar mətn düşünməli və yeni materialda istifadə olunmuş anlayışların başa düşülməsi üçün müvafiq vizualizasiya düşünməlidirlər. Bu şagirdlərin nəyi və necə başa düşməsi haqda daha çox məlumat verəcəkdir.

**Şərh/ əks əlaqə**

Şərh/əks əlaqə inkişafetdirici qiymətləndirmənin ən tanınmış və yayılmış alətidir. Tədqiqatçılar 600-dən çox tədqiqat əsasında bu nəticəyə gəlmişlər ki elə əks əlaqə mövcuddur və bu əks əlaqə, pis işləyir, həvəsləndirmək əvəzinə şagirdin ürəyində oxumağa həvəsi söndürür və akademik nəticələri pisləşdirir. Buna əsasən formalaşmış əks əlaqə də mümkündür ki şagirdə başqa cür təsir göstərsin, hansı ki nailiyyət qazanmağa istiqamətlənmişdir (onun üçün əks əlaqə əhəmiyyətlidir, ona görə ki, davamiyyətini yaxşılaşdırsın) və o şagirdə, hansı ki bütün vasitələrlə çalışır ki müvəffəqiyyətsizlikdən yayınsın. Ona görə də müəllim bilməlidir əks əlaqənin pis nəticəsinə malik şagirdə materialı elə başa salmalıdır ki, bu nəticə nailiyyətsizlik kimi interpretasiya olunmasın. Digər tərəfdən, müəllim şagirdlərə göstərməlidir ki, əzmkarlıq və yaxşılaşdırılmış nəticə bir-biri ilə sıx əlaqədədir.

**Müşahidə, inkişafetdirici qiymətləndirmə kimi**

Müşahidə də inkişafetdirici qiymətləndirmənin alətlərindən hesab olunur. Bu zaman müəllim müşahidənin bir neçə obyektini seçə bilər, yaxud da bütün sinfi müşahidə edə bilər, lakin o konkret mövzu seçməlidir (məs., kommunikasiya). Müəllim bütün sinif qarşısında belə bir şərh edə bilər, yaxud da şagirdlərlə fərdi söhbət keçirə bilər ki, müşahidənin nəticələrini cəmləşdirsin və təlim/tədris prosesinin yaxşılaşdırılması metodunu tətbiq etsin.

Və axırda, nəzərə alınması zəruri olan ən əhəmiyyətlisi budur ki, istənilən fəallıq və strategiya inkişafetdirici qiymətləndirmə aləti yalnız o zaman ola bilir, nə zaman ki, müəllim və şagird (bundan başqa ki müəyyənləşdirsinlər, şagirdin tərəqqisi necədir, o nəyi edə bilmir) yollar axtarıb tapırlar ki şagird bu və ya

digər materialı necə mənimsəməlidir. Buna müvafiq olaraq, inkişafetdirici qiymətləndirmənin heç bir alətinin istifadə olunması səmərəli hesab edilə bilməz, əgər son nəticə məsələnin/ anlayışın dərindən anlaşılması/ öyrənilməsi bacarığınına yiyələnilməmişdirsə .

Qeyd etdiyimiz kimi, inkişafetdirici qiymətləndirmənin fəallıqlarını siz özünüz də sınaqdan çıxara bilərsiniz, bu sinifin necə işlədiyini necə işlədiyini müəyyənləşdirə və başqa müəllimlərlə bölüşməyə nail ola bilərsiniz. Bu, şagirdlərin nəticələrinin yaxşılaşdırılmasının və müəllimlərin peşəkarlıq inkişafının əlçatmazlıq üçün ən yaxşı imkan ola bilər.

# 12. Fəallıqların keçirilməsi ilə əlaqədar ümumi tövsiyələr

## Dərsin planlaşdırılmasının ümumi prinsipləri

### 1. Motivasiya

Şagirdlərin motivasiyasının yüksəldilməsi üçün müvafiq mühitin yaradılması zəruridir, bunun üçün isə müxtəlif tip təhsil resursları düşünmək və hazırlamaq zəruridir.

Resurslar aşağıdakı meyarlara əsasən seçilə bilər:

- Zərurət
- Əlçatmazlıq
- Saxlanma qayğısı
- Kömək

Resurs yaradılanadək müəllim müəyyənləşdirməlidir:

- Onun tərəfindən düşünülmüş resursda elə nə vardır ki, şagirdlərin motivasiyasının yüksəldilməsinə şərait yarada bilər;
- Onun tərəfindən düşünülmüş resursda elə nə vardır ki, bu təcrübə əsasında öyrənməyə şərait yaradar (yapma/düzəltmə ilə öyrənmə);
- Bu resurs öyrənilənin daha yaxşı dərk edilməsi və mənimsənilməsinə şərait yaradırmı;

Təhsil resursları müxtəlif yollarla yaradıla bilər:

- Əlçatanlıq və məktəbdə mövcud olan resursların axtarılıb tapılması və ondan istifadə edilməsi;
- Təhsil resurslarını müəllimin özü də yarada bilər. Resursların yaradılması tədris resurslarının dəyişdirilməsi yolu ilə həm başqa fənlərin pedaqoqları ilə eyni məktəb çərçivəsində, eləcə də başqa məktəblərlə mümkündür və əməkdaşlıq arzu ediləndir.
- Resurs, eləcə də mümkündür ki müəllif tərəfindən yaradılsın və bu tədrisi prosesinin bir hissəsinə çevrilsin.

Şagirdlərin tədris resurslarının yaradılması işinə cəlb edilməsi müxtəlif üsullarla mümkündür.

**Tövsiyə:** Mümkündür ki, müəllim şagirdlərə bu və ya digər mövzu ilə əlaqədar təbii material toplamağı həvalə etsin.

Müəllim hər bir şagirdə kömək göstərməlidir ki, o özünün portfoliosunu yaratsın, harada ki, onun tərəfindən yaradılmış bütün təcrübi tapşırıqlar və ev tapşırıqları yerləşdiriləcəkdir.

### 2. Müəllim tərəfindən həyata keçirilmiş ilkin iş

Müəllim əsas məsələ ilə əlaqədar dərsin məqsədini dəqiq müəyyənləşdirməlidir. Bu zaman əvvəlki biliyi hökmən nəzərə almalıdır. Müəllim nail olduğu çalışdığl nəticəni paylaşmalıdır (bax, məzmunlar və məqsədlər xəritəsi) . Buna əsasən müəllim resursları seçməli, fəallıqları planlaşdırmalı və fəallıqlar üçün zəruri olan vaxtı müəyyənləşdirməlidir.

### 3. Məsələnin qoyulması, vəzifənin müəyyənləşdirilməsi

Müəllim dərsin əvvəlində aydın müəyyənləşdirir və şagirdlərə dərsin məqsədini tanış edir və konkret vəzifə qoyur.

**4. Əsas və köməkçi tədris materialı**

Məsələ qoyulduqdan və vəzifələr müəyyənləşdirildikdən sonra müəllim konkret məsələyə keçir. Mümkündür ki, dərs fəallıqlarla başlansın. Bu fənnin xüsusiyyəti ilə əlaqədar, dərsin bu mərhələsində müzakirə olunası mövzunun müvafiq illüstrasiya ilə uyğunlaşdırılması xüsusi əhəmiyyət verilir. Bununla tanış olduqdan sonra müəllim interaktiv suallar qoyur, bununla da şagirdləri şəkildən aldıqları ilk təəssüratları bölüşməyə təlqin edir, buna həvəs oyadır ki, şəkili təsvir etsinlər, onu təhlil etsinlər, onun barəsində mülahizə yürütsünlər və öz fikirlərini bildirsinlər. Köməkçi tədris materialını kimi müəllim CD – də verilmiş müxtəlif növ resurslardan istifadə edə bilər.

**5. Müstəqil iş**

Demək olar ki, hər bir mövzu təcrübi işi əhatə edir, hansını ki, şagird dərsin gedişi zamanı müstəqil surətdə, cütlüklərlə və ya qrup şəkilində yerinə yetirir; müstəqil iş, ya rəsm albomunda və yaxud da dərsliyə əlavə olunmuş şagirdin iş dəftərində yerinə yetirilir.

Bundan sonra müəllimə imkan verilir ki, şagirdlərin izah edilmiş materialı necə başa düşdüklərini yoxlasın və bu biliyi təcrübədə necə istifadə etdiklərini müəyyənləşdirə bilsin. Burada bu hala diqqət yetirilməlidir ki, yerinə yetirilmiş işin keyfiyyəti eyni cür ola bilməz, lakin əgər şagird dərsdə əldə etdiyi biliyi hansısa bir formada nümayiş etdirə bilirsə, istər lap sözlü şərhlə, hesab etmək olar ki, məqsədə nail olunmuşdur.

**6. Məşğələlər**

Hər bir dərsin sonunda suallar verilmişdir, bu suallarda müəllimin belə bir imkanı vardır ki, dərsin gedişi zamanı bu sualları versin və bununla şagirdləri fəallaşdırsın və yeni materialın mənimsənilməsinin keyfiyyətini yoxlaya bilsin.

**7. Nailiyyətlərə çatmaq mərhələsində yerinə yetirilməli iş**

Hər bir tematik blok yekun dərsi ilə başa çatdırılır ki, bunlar da iki tip tapşırığı – təcrübi və test tapşırığını əhatə edir, onların vasitəsi ilə həm materialın mənimsənilməsi, eləcə də, müvafiq bacarığının işlənib hazırlanması keyfiyyəti yoxlanılır.

Müəllimin kitabında demək olar ki bütün dərslərin ssenarisi verilmişdir, lakin, yəqin nəzərinizə çarpacaqdır ki biz yalnız ehtimal olunan ssenarini təklif edirik, siz isə azad surətdə, öz yanaşmanıza əsasən istənilən dərsi planlaşdıra bilərsiniz.

Yaş xüsusiyyətləri nəzərə alınmaqla və hər bir dərsin xüsusiyyəti ilə əlaqədar, bəzi hallarda müəllim şagirdlərə ev tapşırıqları verir. Müəllimin kitabında bəzi ehtimal olunan ssenaridə ev tapşırığı və təlimat əks olunmuşdur, burada müəllim şagirdlərə öz tövsiyələrini verir. Təbii haldır ki, müəllim öz yanaşmaları ilə əlaqədar bəzi dərslərdə ev tapşırıqlarını əlavə edə bilər.

# 13. Şagirdin kitabının təcrübi hissəsi

Şagirdin kitabının (dərsliyin) əsas struktur elementi fəsildir, bunlar isə ayrı-ayrı dərslərdən ibarətdir. Hər bir fəsildə birləşdirilmiş dərs mövzuları qarşıya bu məqsədi qoyur ki, həm təsviri və həmdə tətbiqi incəsənətin əsas prinsipləri və elementləri öyrənilsin, eləcə də, yaş xüsusiyyətləri nəzərə alınmaqla, müəyyən nəzəri bilik mənimsənilmiş olsun. Dərslərin, yəni ayrı-ayrı mövzuların bir-birini əvəz etməsi keçilmiş materialın mənimsənilməsinin keyfiyyətinin diaqnostikasını nəzərdə tutur ki bu da yeni biliyin və bacarıqların inkişafının ilkin şərtlərindən hesab olunur. Dərsin qurulması prinsipi bu yaşdan olan şagirdlər üçün təbii maraqlılıq oyadır, artıq mövcud olan təcrübəyə yeni biliyin artırılması prinsipinə əsaslanır ki bu da şagird üçün tədris motivasiyası yaradılmasının ən yaxşı vasitəsidir. Dərsin gedişində materialın mənimsənilməsinin permanent yoxlanılması – qiymətləndirilməsi (lazım gəldiyi təqdirdə nəticənin korreksiyası) həyata keçirilir ki, bu da ehtimal olunan ssenaridə öz əksini tapmışdır. Hər fəslin sonunda yekun dərs vasitəsilə bütün fəslin materialının nəzərə çatdırılması və qiymətləndirilməsi (təcrübi iş, test, nəzəri iş) baş verir. Müəllimin kitabında şagirdin özünüqiymətləndirmə rubrika nümunələri verilmişdir ki bununla da şagird özü nail olduğu nəticəni dərk edir, kəsirlərin/çətinliyin/və yaxud nail olunası vəzifənin qeydə alınmasını həyata keçirir. Şagirdin kitabının hər bir fəsillində öyrənilsə material əvvəlki biliyin və təcrübənin nəzərə alınması ilə, eləcə də, başqa məktəb fənləri ilə (təbiətşünaslıq, gürcü dili, coğrafiya, tarix və s.) sıx əlaqədə verilmişdir. Yeni biliyin əldə edilməsi və bacarıqların işlənib hazırlanması tematikanın gündəlik həyatla əlaqələndirilməsi zəminində möhkəm təməl

yaradır və şagirdin təcrübi təcrübəsi ilə uyğunlaşdırılır. Biliyin möhkəmləndirilməsi və qiymətləndirilməsi mexanizimlərindən biri müxtəlif növ test tapşırıqlarıdır (vizual test, nəzəri test, qarışıq tip test), bunlar isə müəllimin kitabında bütöv şəkildə təqdim edilmişdir.

Təcrübi hissədə təqdim olunmuş müəllimin kitabının birinci fəslinin bütün 18 dərsi ehtimal olunan ssenarilərdir, qalan 4 fəsildən 9 ssenari, cəmi 27 ssenari. Ehtimal edilən ssenarilər elə seçilmişdir ki, bütün növdən olan dərs özünüqiymətləndirmə mexanizmləri və alətləri ilə təqdim edilmiş olsun: tapşırıqlar, interaktiv, diskussiya və s. və ilaxır... Müəllimin kitabında bütün dərslərin mövzusu, məqsədi və tədrisin nəticəsinin MTP-nın standart nəticələri, konkret indikatorun göstərilməsi ilə təqdim edilmişdir. Bütün dərslərdə dərslərin təşkil formaları və müvafiq resursları göstərilmişdir; ehtimal edilən ssenarilərdə fəallıqlar və hər bir fəallığın MTP ilə əlaqəsi tədrisin nəticəsi ilə konkret dərs müddətinin göstərilməsi ilə dəqiq surətdə təsvir edilmişdir. Hər bir dərsin qiymətləndirmə forması və qiymətləndirmə meyarları, tövsiyə (əsasən təlim/tədrisin fərqli strategiyasının göstərilməsi ilə), qeyd və terminlərin izahı əlavə edilmişdir. Müxtəlif növ tapşırıqlar (sinif və ev tapşırıqları, dərs diskussiyaları, interaktiv və s.) məhdud imkanlı və ya xüsusi təlim ehtiyacı olan şagirdə yönəldilmişdir. Müəllimə tövsiyə edilən fəallıqlar verilir, həm tapşırığın mürəkkəbləşdirilməsi, həm də onun asanlaşdırılması qismində müəllimin kitabında (dərsin ssenarisində sinif və ev tapşırıqlarının təcrübi iş və nəzəri iş) qiymətləndirmə meyarları, eləcə də yekun tapşırıqların qiymətləndirilməsi rubirkaları, tapşırıqların konkret tiplərinin nəzərə alınması ilə fəallıqlar verilir. Ssenarilərin tövsiyə hissəsində ev tapşırıqlarının yerinə yetirilməsinin müxtəlif forma və strategiyaları təklif olunur.

Əlavə resursların – mətbu məhsul, elektron resurs (məqsəd yönlü şəkildə seçilmiş elektron resurs nəşriyyatın veb-səhifəsinə təcrübi dərslikdə müzakirə olunmuş hər bir mövzuya – epoxa, mədəniyyət, bədii texnika, yaradıcı, əsərlər və s.) kifayət qədər genişdir.

Müəllimin kitabında eləcə də müstəqil layihələrin həyata keçirilməsinin əsas parametrləri: məqsədi, nəticəsi və MTP nəticəsi ilə əlaqəsi, təşkil forması, vacib resursu, tövsiyələri. Müxtəlif növ test tapşırıqlarının nümunələri rəngarəngdir. Beləliklə, müəllimin kitabı təcrübi nöqteyi-nəzərdən şagirdin kitabının onunla birgə metodoloji tərəfkeşlik missiyasını yerinə yetirir və müəllimə imkan verir ki, kitabın müəllifləri tərəfindən tövsiyə olunmuş ehtimal edilən ssenarilərdən istifadə eləsin, eyni zamanda, ona dərs prosesini yaradıcı və sinfin real tələbləri ilə əlaqədar idarə etmək azadlığı verilir.

## 14. Müəllimin kitabının yekun hissəsi

Şagirdin kitabında hər bir dərs interaktiv xarakterlidir; dərsin kifayət qədər böyük hissəsi interaktiv suallara ayrılır, bu isə öz növbəsində müəllimə imkan verir ki, həm artıq keçilmiş materialın mənimsənilmə keyfiyyətini, həm də ümumi biliyi yoxlaya bilsin, (başqa fənnə inteqrasiya, mövcud olan təcrübə ilə əlaqə), bununla yanaşı şagirdə öz mülahizələrini bildirmək məqsədi ilə müəyyən imkan açır, ehtimalın müstəqil surətdə deyilməsi üçün şərait yaradır. İnteraktiv cavabları müəllimin kitabının təcrübi hissəsində, interaktiv suallara ehtimal olunan ssenarilərə və hər bir dərsdə təcrübi abreviatura ilə pik – cavab verilmişdir.

Biliyin zənginləşdirilməsi və dərinləşdirilməsi məqsədi ilə kitabda müəllim üçün əlavə məlumat təqdim edilmişdir – MƏİ, burada müəllim, öz bildiyi kimi, dərs prosesinin konkret hissəsində şagirdlərə təqdim edir. Kitaba əcnəbi sözlərin və terminlərin lüğəti əlavə edilmişdir.

## 15. Müəllimin kitabı ilə əlaqədar qeydlər

1. Müəllimin kitabında bütün dərslərin məqsədi, qiymətləndirmə, dərs üçün vacib olan resurslar, iş formaları və dərsin nəticələri qeyd edilmişdir. Qeydlər, tövsiyələr

2. Müəllimin kitabında 27 dərsin ehtimal edilən ssenarisi və bütün başqa dərslərin məqsədləri, nəticələri, konkret indikatorları göstərməklə, işləmə formaları, resurslar, qiymətləndirmə formaları və meyarları, terminlər, qeydlər və tövsiyələr verilmişdir. Eləcə də, elektron xətdə müxtəlif tip əlavə material təqdim edilmişdir.

3. Əhəmiyyətli cəhət burasıdır ki, müəllim dərsi planlaşdıran zaman keçmiş biliyi nəzərə alsın. Keçmiş biliyin fəallaşdırılması zamanı, müəllim hökmən sualları əvvəlcədən hazırlamalıdır və suallar şagirdlərin konkret

məsələ ilə əlaqədar artıq keçilmiş material üzrə biliyini və eləcə də əvvəlki dövrdə qazanılmış bacarığını üzə çıxarmalıdır. Məhz o təməl budur, hansında ki, sonralar müəllim şagirdə yeni material əlavə etməli və müvafiq təcrübi bacarıqlar işləyib hazırlamalıdır.

4. Bu cəhət də əhəmiyyətlidir, hər dərsin sonunda şagirdlər iş yerini səliqə-sahmana salmalıdırlar ki, tədris prosesi təmiz mühitdə davam etdirilsin. Şagirdlər iş yerini – partaları, sinfi – hər dəfə təmizləməlidirlər. Müəllim bu alışqanlığı öyrətmək üçün buna diqqət yetirməlidir və lazım gəldiyi hallarda, şagirdlərə bu borcu yerinə yetirməyi tövsiyə etməlidir.

4. Müəllim çalışmalıdır ki, şagirdi elə tərbiyə etməlidir ki, şagirdə özünün və başqasının əl işlərinə ehtiyatla və canıyananlıqla yanaşmaq mədəniyyəti aşılasın.

5. Dərslərin ssenarilərində bütün fəallıqların vaxtı ehtimal ilədir. Müəllimə öz baxışlarına görə, sinfin imkanları ilə əlaqədar hər bir fəallığın müddətini dəyişmək imkanı verilməlidir. Əgər müəllim hesab etsə ki, təcrübi işə daha çox vaxt ayrılmalıdır və təqdimat üçün vaxt qalmır, bu halda o, həmin işi növbəti dərsə keçirməlidir.

6. Kitabın sonunda verilmiş 3 layihədən (bizim sərgi, məktəbin həyatini gözəlləşdirək və musiqi və rəssamlıq) biri – „Bizim sərgi“ arzu ediləndir ki, dərs ilinin sonunda təşkil edilsin, qalanlarını isə müəllim özü bildiyi kimi istənilən vaxtda həyata keçirə bilər.

# 16. Dərslərin ehtimal olunan ssenariləri

## Şagirdin kitabının məzmunu

**Birinci hissə**
Kitabdan necə istifadə edək

**I Fəsil**
1. Uğurlu səyahət arzulayırıq
2. Amsterdam
3. Hollandiya peyzajı
4. Hollandiya rəssamlığı
5. Suda şəhərin əksi
6. Şəhərin gerbi və devizi
7. Madrid
8. Madrid – futbol şəhəri
9. Küçə lövhəsi
10. Quel parkı
11. Arzular parkı
12. Afina
13. Flüger
14. Yunan vazaları
15. Qab-qacaq çəkək
16. Böyük şəhərlərin həyətləri
17. Arzular evinin pəncərəsi
18. İncəsənət muzeyinə səyahət I

**II Fəsil**
19. İstanbul
20. Şəkilləşdirilmiş tarixi fakt
21. Xristian və müsəlman İstanbulu
22. Ornament
23. Dumanlı Albionun paytaxtı
24. Yağış necə çəkilir
25. İngilis kitab qrafikası
26. Şəkilli kitab
27. Yeni il şam ağacı
28. Msxeta
29. Gürcüstanın qala – istehkamları
30. Gürcü incəsənəti
31. Gürcü naxışları (oyma)
32. Gürcü rəssamlığı
33. Dəvətnamə
34. İncəsənət muzeyinə səyahət II

**İkinci hissə**
**III Fəsil**
35. Paris
36. Nöqtələrlə şəkil çəkmək
37. Həndəsi natürmort
38. Müstəvidə fəza
39. Yüksək moda paytaxtı
40. Yeni incəsənət paytaxtı
41. Qahirə
42. Misir suveniri
43. Sehrli xalça
44. Qədim Misir incəsənəti
45. Portret
46. Mənim yaxınımın portreti
47. Roma
48. Natürmort
49. Renessans rəssamlığı
50. Orijinal hədiyyə
51. İncəsənət aləminə səyahət III

**IV Fəsil**
52. Göydələnlər şəhəri
53. Müasir incəsənət
54. Mücərrədçilər (Abstraksionistlər)
55. Nyu-Yorkda qış
56. Berlin
57. Berlin divarı
58. Ekspressionistlər
59. Zoopark
60. Şimal paytaxtı
61. Qara tuş
62. Rəngli tuş
63. Kağız
64. Yuxarıdan baxılmış aləm
65. İncəsənət aləminə səyahət IV

Layihə I. Bir şah əsərin tarixi

Layihə II. Teatrın sehrli aləmi

Yekun dərs – 1
Yekun dərs – 2
Yekun dərs – 3
Yekun dərs – 4

## 1. Uğurlu səyahət arzulayırıq

**Dərsin məqsədi:** Şagirdə müxtəlif mədəniyyətin özünəməxsusluqlarını müəyyənləşdirmək bacarığını, incəsənət abidələrinə əsasən bu və ya digər ölkənin mədəniyyətinin tanınması bacarığını inkişaf etdirək, fantaziyasını və təsvirlə səyahət bacarığını oyadaq. Arqumentləşdirilmiş mülahizə bacarığını möhkəmləndirək.

**F.p.VI.3. Şagird yaradıcılıq və təşkilati problemləri həll etmək üçün öz sinif yoldaşları ilə əməkdaşlıq (cütlüklərlə, komandada) əsasında yerinə yetiriləsi işin planlaşdırılması və həyata keçirilməsini bacarmalıdır.**

**İndikator**

- Birgə iş zamanı (tədbirin planlaşdırılması/həyata keçirilməsi, cütlükdə/qrupda əl işinin yaradılması öz sinif yoldaşları ilə fərqli düşüncələri, ideyaları bölüşür, onlarla birlikdə ümumi qərarlar qəbul edirsə;

**f.p.VI.5.** Şagirdlər **təsviri və tətbiqi incəsənətin müxtəlif sahələrinin nümunələrini tarixi, dini, mədəni və sosial məzmun ilə** əlaqələndirməyi **bacarmalıdırlar.**

**İndikator**

- Məşhur memarlıq abidələrinin yaradılması səbəblərini (Piramidalar, Çin səddi, göydələnlər və s.) sadalayır;
- İncəsənət nümunələrində öz əksini tapmış tarixi və ya bədii personajlar barədə mülahizə yürüdə bilir və onların xarakteri haqqında söhbət etməyi bacarır.

### Dərsin gedişi

### Fəallıq I

**Fəallığın məqsədi:** Şagirdi dərsliyin prinsiplərini tanış edək; şagirdə müxtəlif mədəniyyətin özünə məxsusluğunun müəyyənləşdirilməsi bacarığını, incəsənət abidələrinə əsasən bu və ya digər ölkənin mədəniyyətinin tanınması bacarığını inkişaf etdirək.

**Fəallığın nəticəsi:** Şagird yaradıcılıq və təşkilati problemləri həll etmək üçün öz sinif yoldaşları ilə əməkdaşlıq (cütlüklərlə, komandada) əsasında yerinə yetirilməsi işin planlaşdırılması və həyata keçirilməsini bacarmalıdır.

**İndikator**

- Birgə iş zamanı (tədbirin planlaşdırılması/həyata keçirilməsi, cütlükdə/qrupda əl işinin yaradılması öz sinif yoldaşları ilə fərqli düşüncələri, ideyaları bölüşür, onlarla birlikdə ümumi qərarlar qəbul edirsə;

**F.p.VI.5. Şagird təsviri və tətbiqi incəsənətin müxtəlif sahələrinin nümunələrini tarixi, dini, mədəni və sosial məzmun ilə əlaqələndirməyi bacarmalıdır.**



**İndikator**

- Müxtəlif mədəniyyətin incəsənət nümunələrini əsas xarakterik xüsusiyyətlərinə əsasən tanıyır və bunun barəsində mülahizə yürüdə bilir ki bu, sosial, tarixi və dini məzmunda onların vizual cəhətində özünü necə əks etdirmişdir;
- Məşhur memarlıq abidələrinin yaradılması səbəblərini (Piramidalar, Çin səddi, göydələnlər və s.) sadalayır;
- İncəsənət nümunələrində öz əksini tapmış tarixi və ya bədii personajlar barədə mülahizə yürüdə bilir və onların xarakteri haqqında söhbət etməyi bacarır.

**Vaxt:** 20 dəq

**İş forması:** fərdi, cütlüklərlə

**Resurs:** dərslik, kağız və yaxud kartoçka, qələm

**Fəallığın qısa təsviri**

**Müəllimin fəallığı:** dərs ilinin əvvəlində müəllim şagirdlərə onun barəsində danışır ki, bu fənnin tədrisi zamanı onlar incəsənət dərsində nəyi öyrənəcəklər, onları yeni dərsliklə tanış edir və izah edir ki, onların qarşısında təsvir yolu ilə dünyanın bir çox ölkələrinə „səyahəti sevirik?" sualı altında səyahət gözləyir və həmin sualla şagirdlərə müraciət edir. Ehtimal olunduğu kimi, şagirdlər təsdiq edirlər ki, səyahəti sevirlər və onların xoşuna gəlir. Müəllim onlardan xahiş edir ki, onlar doğma regionundan başqa – Gürcüstanda və yaxud onun hüdudlarından kənarda harada olmuşlar. Şagirdlər suala özlərinin səyahətləri barədə söhbətlə cavab verirlər. Müəllim onların hər birindən xahiş edir ki, orada nə gördüklərini, indiyədək heç yerdə rast gəlmədiklərini, nəyin şahidi olduqlarını təsvir etsinlər.

**Şagirdin Fəallığı:** Şagirdlərin cavabları rəngarəngdir, bəzisi fərqli təbiəti təsvir edir, bəzisi tarixi abidələrə diqqət yetirir. Sinif onların söylədiklərinə diqqətlə qulaq asır.

**Müəllimin fəallığı:** müəllim onun barəsində söhbət açır ki istənilən səyahət yeni təəssüratlarla, yeni məlumatlar ilə əlaqədardır. Bütün bunlar isə insanı mənəvi cəhətdən zənginləşdirir,dünyagörüşünü genişləndirir və onda təsvir bacarığını inkişaf etdirir. Sonra o şagirdlərə təklif edir ki, kağız vərəqi üzərində və yaxud xüsusi məktubda o ölkələri və yaxud şəhərləri qeyd etsinlər, hansılar ki, görmək arzusundadırlar. Eləcə də qeyd etsinlər ki, seçilmiş yerlərdə nəyə baxmaq istəyirlər. Sinif tapşırığının yerinə yetirilməsindən sonra müəllim imza olunmuş kartoçkaları toplayır – bütün dərs ili ərzində şagirdlər, ehtimal olunduğu kimi, qiyabi şəkildə sadalanmış ölkələrə səyahət edirlər və hər bir şagirdə imkan verilir ki, kartoçkada hansı məlumatı əldə etdiyini

qeyd etsin, təsəvvür edilən səyahət zamanı təzə nə öyrəndiyini və səyahətdən sonra hansı təəssüratları qazandığını əks etdirsin.

Dərsin növbəti bölümündə müəllim şagirdlərdən xahiş edir ki dərslikdə təqdim olunan illüstrasiyalara yaxşı diqqət yetirsinlər. O, şagirdləri cütlərə ayırır və o illüstrasiyaların nömrələrinə işarə edir, hansına əsasən onlar bu şəhərləri tanımalıdırlar. Şəkillərdə incəsənətin asan tanınan nümunələri təqdim edilmişdir, hansılardan ki, onlardan hər biri öz ölkəsinin rəmzinə çevrilmişdir.

**İ.S.C.** 1. Kartlinin anası-Tbilisi, 2. Piza qülləsi-İtaliya, Piza şəh. 3. Akropol –Yunanıstan, Afina şəh, 4. Svetisxoveli – Gürcüstan, Msxeta. 5. Eyfel qülləsi – Fransa, Paris şəh, 6. Biq – Ben – İngiltərə, London şəh, 7. Kolizey –İtaliya, Roma şəh, 8. Göydələnlər – Amerika Birləşmiş Ştatları, Nyu-York, 9. Sidney operası – Avstraliya, Sidney şəh.

**Şagirdin Fəallığı:** Cəm halında növbə ilə tanıdıqları şəhərlərin və oradakı abidələrin adlarını sadalayırlar. Mümkündür ki, şagirdlər bütün fotolara əsasən hansısa şəhəri və ya ölkəni tanıya bilməsinlər. Müəllim onlara bunun barəsində söhbət açır ki, dərslik onlara bu və ya digər başqa bir çox ölkələrlə tanış olmaqda kömək göstərəcəkdir. O şagirdlərə onun barəsində söhbət açır ki, bu və ya digər ölkənin adət-ən\nələri barədə məlumat almaq, mədəniyyəti və incəsənəti ilə tanış olmaq mühüm əhəmiyyət kəsb edir, çünki onların dünyagörüşünün zənginləşdirilməsinə bunlar kömək göstərir. Əsl səyahətin məhsuldar olması üçün və zəngin təəssürat verməsi məqsədi ilə, insan səyahətə çıxana qədər həmin ölkələr və şəhərlər barədə müəyyən təsəvvürə malik olmalıdırlar, bilməlidirlər ki, hara gedirlər və nəyi görməlidirlər. Dərslik məhz bu işdə onlara kömək göstərəcəkdir.

**Fəallıq II**

**Fəallığın məqsədi:** şagirdə mülahizə yürütmək, müxtəlif mədəniyyətin xarakterik xüsusiyyətlərinin tanınması bacarığını inkişaf etdirir.

**Fəallığın nəticəsi: F.p.VI.5. Şagird təsviri və tətbiqi incəsənətin müxtəlif sahələrinin nümunələrini tarixi, dini, mədəni və sosial məzmun ilə əlaqələndirməyi bacarmalıdır.**

**İndikator**

- Müxtəlif mədəniyyətin incəsənət nümunələrini əsas xarakterik xüsusiyyətlərinə əsasən tanıyır və bunun barəsində mülahizə yürüdə bilir ki bu, sosial, tarixi və dini məzmunda onların vizual cəhətində özünü necə əks etdirmişdir;
- Məşhur memarlıq abidələrinin yaradılması səbəblərini (Piramidalar, Çin səddi, göydələnlər və s.) sadalayır;
- İncəsənət nümunələrində öz əksini tapmış tarixi və ya bədii personajlar barədə mülahizə yürüdə bilir və onların xarakteri haqqında söhbət etməyi bacarır.

**İş forması:** fərdi

**Vaxt:** 25 dəq

**Resurs:** vərəq, qələm

**Fəallığın qısa təsviri**

**Müəllimin fəallığı**: Müəllim belə bir həvəsləndirici situasiya oyunu təklif edir – şagirdlər səyahətə hazırlaşırlar. Onlar özlərinə səfər zamanı onlara gərək olacaq əşyaları seçirlər. Hər bir şagird müəyyən olunmuş vaxt ərzində lazımi əşyaların siyahısını tərtib edir və sonra onu sinfə təqdim edir. Bu siyahıya mümkündür, elə əşyalar daxil ola bilər ki onlar, məsələn kompas – cəngəlliklərə, səhralar səyahət zamanı lazım ola bilər. Günəş eynəyi və papaq-Cənub ölkələri üçün və bir çox başqa şeylər. Müəllim onlara tövsiyə edir ki, özləri ilə mütləq foto aparat götürsünlər ki görməli yerlərin şəkili çəksinlər, durbin və qələm götürsünlər ki istədikləri zaman öz təəssüratlarını qeyd etsinlər və yaxud abidələrin şəkilini çəksinlər, əlbəttə, ən xoşlarına gələn nümunələrin şəklini, faydalı məsləhət bundan ibarətdir ki eləcə də, muzeylərin və yaxud mədəni irsin başqa abidələri nəzərdən keçirilərkən kataloqun və yaxud bukletin əldə edilməsinə nail olsunlar, harada ki abidələr barədə zəruri məlumat toplanmışdır. Beləliklə „silahlanmış“ səyahətçi vaxtı hədər yerə itirməyəcək və vətənə yeni təəssüratlarla dolu qayıdacaqdır.

Dərsin sonunda müəllim şagirdləri ev tapşırığı ilə tanış edir. Şagird ən çox səyahət etmək arzusunda olduğu bir şəhərin adını çəkməlidir, onun barəsində məlumat toplamalı və təsdiq etməlidir ki, onun seçiminə nə səbəb olmuşdur. Tapşırıq yazılı qaydada yerinə yetirilir və növbəti dərsdə hər bir şagird öz seçimini sinfə təqdim edir.

**Terminlər:** orijinal (lat. Origina lis – lap ilkin ) – əsli.

**Qiymətləndirmə forması: cari**

**Meyarlar:** müxtəlif mədəniyyətlərin özünəməxsusluğunu tanımaq bacarığı, incəsənət əsərlərinə əsasən bu və ya digər xarakterli bacarıqlar. Mülahizə yürütmək və təqdim etmək bacarıqları.

## 2. Amsterdam

**Dərsin məqsədi:** Şagirdə təsviri inkişaf etdirək, Hollandiya memarlığı və mədəniyyətinin tipik abidələri ilə tanış edək. Maddi mədəniyyət abidələrinin təhlili və nəticələrin müstəqil əldə edilməsi bacarığını işləyib hazırlayaq.

**Nəticə: F.p.VI.1 Şagird öz maraqlarına və təcrübəsinə əsaslanaraq, təsviri incəsənətin elementlərindən və prinsiplərindən məqsədyönlü şəkildə istifadə etməklə əl işi üzərində düşüncəsini, ideyasını, əhval -ruhiyyəsini (emosiyalarını) və təəssüratlarını əks etdirməyi bacarmalıdır.**

**İndikator**

- Təsviri şəkil səthində düşüncə ilə bölüşdürür;
- Əl işi yaradan zaman kompozisiyalı bölünmənin əsas üsullarından, məs., tarazlıq, baxış nöqtəsi (məs. hava şarı ilə səyahət, aşağıdan və yuxarıdan görünən dünya əşyalar və s.);
- Perspektivin əsas qanunlarından istifadə etməklə (ön, orta və arxa baxış, yarım tonlar);
- Müxtəlif bədii üsullarla dinamikanı və statikanı, simmetriyanı və asimmetriyanı düşündüyünü əks etdirmək üçün verə bilir.
- Müxtəlif üsullarla (forma ilə, ölçü ilə, rəng ilə, şəkil üçün nəzərdə tutulmuş səthdə) bölməklə əl işinin əsas cəhətini ayıra bilir;
- Əşyaların tarazlığına və proporsiyasına (sadə şəkildə) diqqət yetirir və əks etdirir;

**F.p.VI.2. Şagird müxtəlif materialdan və texnikadan məqsədyönlü şəkildə seçməyi və tətbiq etməyi, öz düşüncə və ideyasını həyata keçirməyi bacarmalıdır.**

**İndikator**

- Fərqli üsullardan istifadə edir, müxtəlif materialın texnikadan istifadə etməklə verilmişləri daha yaxşı yerinə yetirmək və düşünülmüşün verilməsi üçün eksperimentlər keçirir;
- Materialı, texnikanı (ənənəvi, qeyri-ənənəvi) məqsəd yönlü seçir və onlardan müxtəlif janrlı əl işləri yaratmaq üçün istifadə olunma yollarını genişləndirir (portret, natürmort, peyzaj, məişət janrı);
- Qrafik əl işlərini müxtəlif material ilə (tuş, mürəkkəb, kömür və s.) yerinə yetirir;

**F.p.VI.5. Şagird təsviri və tətbiqi incəsənətin müxtəlif sahələrinin nümunələrini tarixi, dini, mədəni və sosial məzmun ilə əlaqələndirməyi bacarmalıdır.**

**İndikator**

- Müxtəlif mədəniyyətin incəsənət nümunələrini əsas xarakterik xüsusiyyətlərinə əsasən tanıyır və bunun barəsində mülahizə yürüdə bilir ki bu, sosial, tarixi və dini məzmunda onların vizual cəhətində özünü necə əks etdirmişdir;
- Məşhur memarlıq abidələrinin yaradılması səbəblərini (Piramidalar, Çin səddi, göydələnlər və s.) sadalayır;
- Vizual detallara əsasən (əşyalar, paltar, tikililər, nəqliyyat) əsərdə əl işində hansı epoxanın və mədəniyyətin təsvir olunduğunu tanıyır;

**Dərsin gedişi**

**Fəallıq I**

**Fəallığın məqsədi:** şagirdə Hollandiya mədəniyyətinin xarakterik nümunələrini tanımaq bacarığını inkişaf etdirək; qrafik materialdan istifadə etməklə rəsm əsəri yaratmaq bacarıqlarını xarakterik detallarının qeydə alınması ilə inkişaf etdirək.

**Fəallığın nəticəsi: F.p.VI.5. Şagird təsviri və tətbiqi incəsənətin müxtəlif sahələrinin nümunələrini tarixi, dini, mədəni və sosial məzmun ilə əlaqələndirməyi bacarmalıdır.**

**İndikator**

- Müxtəlif mədəniyyətin incəsənət nümunələrini əsas xarakterik xüsusiyyətlərinə əsasən tanıyır və bunun barəsində mülahizə yürüdə bilir ki bu, sosial, tarixi və dini məzmunda onların vizual cəhətində özünü necə əks etdirmişdir;
- Məşhur memarlıq abidələrinin yaradılması səbəblərini (Piramidalar, Çin səddi, göydələnlər və s.) sadalayır;
- Vizual detallara əsasən (əşyalar, paltar, tikililər, nəqliyyat) əsərdə əl işində hansı epoxanın və mədəniyyətin təsvir olunduğunu tanıyır;

**Vaxt:** 20 dəq

**İş forması:** fərdi

**Resurs:** dərslik, dünyanın siyasi xəritəsi

**Fəallığın qısa təsviri**

**Fəallıq I**

**Müəllimin fəallığı:** səyahət dünyanın ən gözəl şəhərlərinə səyahət Amsterdamdan başlanır. Müəllim o barədə danışmağa başlayır ki, Amsterdam Avropanın kiçik ölkələrindən biri olan Niderlandın paytaxtıdır. „Bilmirsiniz ki, bu ölkən başqa cür necə adlandırırlar?“ – deyə o şagirdlərdən soruşur. Mümkündür, şagirdlər bilirlər ki, bu ölkə Hollandiyadır. Sonra söhbət Hollandiyanın yerləşməsinə aid olur. Şagirdlər müstəqil olaraq və yaxud müəllimin köməyi ilə xəritədə Hollandiyanı və onun paytaxtını tapırlar. Müəllim və şagirdlər birlikdə dərsin birinci paraqrafı ilə tanış olurlar, burada şəhərin yaradılması tarixi və onun adı ilə əlaqədar olan əfsanədən bəhs edilir.

Müəllim onlara yeni sözün əhəmiyyətini də izah edir, hansı ki, rəng ilə ayrılmış sahədə verilmişdir.

Dərsin mətnində rəngli sahədə əlavə məlumat „Amsterdamın devizi, bayrağı və gerbi“ verilmişdir. Şagirdlər həmin məlumat ilə tanış olurlar. Müəllim şagirdlərdən onun barəsində fikirlərini öyrənmək üçün sual verir – devizin və gerbin mövcudluğunun hansı əhəmiyyəti vardır. Şagirdlərin cavabları rəngarəng ola bilər, lakin əhəmiyyətli cəhət burasıdır ki, onlar dəqiq başa düşsünlər ki, devizi nəyə görə seçirlər, deviz nəyi əks etdirməyə xidmət edir. Əlavə məlumat ilə tanış olduqdan sonra müəllim şagirdlərin yadına salır ki, ikinci dünya müharibəsi 1941-1945-ci illərdə gedirdi və onda Hollandiya, necə ki, digər bir çox Avropa ölkələri, nasist Almaniyasına qarşı mübarizə aparırdı. Beləliklə, Amsterdamın devizinə çevirilmiş sözlər bütün Holland xalqının ruhunu əks etdirir.

Dərs mülahizələrin tipik Hollandiya evləri və küçələri barədə davam etdirilir. Şagirdlər fotolarla tanış olurlar və müəllim onlardan xahiş edir ki həmin şəkilləri təsvir etsinlər. Pəncərələrlə dəlik deşik edilmiş dar fasadların təsviri zamanı müəllim növbəti interaktiv suallar verir.

**İ.S.C.** Şagirdlər onun barəsində mülahizə yürüdürlər ki, torpağın azlığına görə evlər özlərinin çoxluğu ilə diqqəti çəkir, onların dar fasadları küçəyə çıxır, evin əsas kütləsi isə həyətin dərinliyində – fasadın arxasında yerləşir. Çoxlu pəncərə işıqlandırma, günəş şüasının çatışmazlığını doldurur. Buna görədir ki Hollandiya evlərində pəncərə örtükləri örtülmür.

Müəllim şagirdlərdən soruşur –dünyada su ilə dolu arxlar ilə daha hansı şəhər məşhurdur? Ehtimal olunduğu kimi, şagirdlər asanca başa düşürlər ki, bu şəhər Venesiyadır və məhz buna görədir ki Amsterdamı Şimal Venesiyası adlandırırlar.

**Fəallıq II**

**Fəallığın məqsədi:** şagirdə düşünülənə müvafiq rəsm materialı seçmək və Hollandiya mədəniyyətinin xarakterik elementərini əks etdirmək bacarıqlarını inkişaf etdirək. Məlumatın müstəqil surətdə axtarılb tapılması bacarıqlarını möhkəmləndirək.

**Fəallığın nəticəsi: F.p.VI.1 Şagird öz maraqlarına və təcrübəsinə əsaslanaraq, təsviri incəsənətin elementlərindən və prinsiplərindən məqsədyönlü şəkildə istifadə etməklə əl işi üzərində düşüncəsini, ideyasını, əhval -ruhiyyəsini (emosiyalarını) və təəssüratlarını əks etdirməyi bacarmalıdır.**

**İndikator**

• Təsviri şəkil səthində düşüncə ilə bölüşdürür;

• Əl işi yaradan zaman kompozisiyalı bölünmənin əsas üsullarından, məs., tarazlıq, baxış nöqtəsi (məs. hava şarı ilə səyahət, aşağıdan və yuxarıdan görünən dünya əşyalar və s.);

